15 Oktyabr
Səs
№ 188 (6388) 15 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik



# 15 Oktyabr - xalqın iradəsi və istəyinin reallaşdığı gün!

Müasir Azərbaycan dövlətinin siyasi yüksəlişinin növbəti mərhələyə keçid etməsindən, möhtərəm cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsindən, 18 il ötür. 2003-cü ilin bugünkü günü, 15 oktyabr tarixində demokratik qaydada keçirilən seçkilərdə...

Səhifə 2



# "Ərdoğanın səfəri bölgə dövlətlərinə bir mesajdır"

*"Qarabağın azad olunmasının 1 illiyi ərəfəsində Füzuli şəhərində Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması çox böyük uğurdur. Bu cənab Prezidentin rəhbərliyi altında Azərbaycan xalqının böyük bir uğuru və müvəffəqiyyətidir. Eyni zamanda dünya...*

Səhifə 5




# İşğaldan azad olunan ərazilərin bərpasına dost ölkələr töhfə verir

Azərbaycan sülhsevər, tolerant, multikultural dövlət olaraq bütün dünya ölkələrinin maraq dairəsindədir. Ölkəmizin sabit, dinamik inkişafı, hökm sürən əmin-amanlıq, dünya ölkələri, beynəlxalq...

Səhifə 6



Səhifə 4

# Müdafiə Nazirliyi: Hərbi qulluqçumuz şəhid olub

# Uşaqların həddindən artıq smartfondan istifadə etməsi nə qədər doğrudur?



Araşdırmalara görə, smartfonların gündəlik həyatda və insanlararası münasibətlərdə funksionallığa təsir edən təkrarlanan davranış pozğunluqlarına səbəb olduğu müşahidə olunur. Smartfonların istifadəsi bir çox rahatlıq təmin edir, həm də psixoloji, fizioloji və insanlararası münasibətlərə mənfi təsir...

Bax 16

# "Ermənilər Qarabağda tarixi və mədəni abidələrin 95 faizini məhv edib"



Ermənistanın 30 il ərzində işğal altında saxladığı Qarabağ ərazisində abidələrimizə münasibətdə həyata keçirdiyi vəhşiliyin əsas məqsədi Azərbaycan xalqının əsrlər boyu yaratdığı tarixi, mədəni irsi yer üzündən silmək olub. Uzun...

Səhifə 5



Səhifə 5

# İqtisadçı: "Füzuli yeni və müasir standartlara uyğun olaraq qurulan bir şəhər olacaq"



**ŞOK İDDİA: Rusiya Ermənistanı tərk edir?**

11




**İranın absurd iddiaları şkalanı keçir: fakt yox, sübut yox!**

13

# 15 Oktyabr - xalqın iradəsi və istəyinin reallaşdığı gün!



2003-cü ilin 15 oktyabr tarixində Cənab İlham Əliyevin Prezident seçilməsi...



Müasir Azərbaycan dövlətinin siyasi yüksəlişinin növbəti mərhələyə keçid etməsindən, möhtərəm cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsindən, 18 il ötür. 2003-cü ilin bugünkü günü, 15 oktyabr tarixində demokratik qaydada keçirilən seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 71.5%-i (3,046,401 vətəndaş) iştirak etmişdir. Seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev olmuşdur. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76.84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident İlham Əliyev bundan öncə Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən cənab İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərmişdir. Həmçinin 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına cənab İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır. Bütün bu uğurlu fəaliyyətlər isə cənab İlham Əliyevin seçkilərdə qalib gəlməsini şərtləndirən ən əsas amillər olmuşdur.

### 15 oktyabr - xalqın iradəsi və istəyinin reallaşdığı gün

Hər bir xalqın tarixi inkişafına nəzər salsaq görərik ki, böyük uğurların əldə olunmasında, dünyada gedən intibah prosesində ölkələrin qabaqcıl pillələrdə qərarlaşmasında liderlərin rolu müstəsna və həlledicidir. Liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilir. Bu mənada Azərbaycan xalqı da çox xoşbəxtdir ki, ölkəmizə uzun müddət dünya siyasətinin fenomeni, bütün həyatını canından artıq sevdiyi doğma xalqına həsr etmiş Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir. Xalqımız həm də ona görə xoşbəxtdir ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi prioritetlər, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası onun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində illərdir ki, ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır. 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyev sevimli xalqına etdiyi tarixi müraciətində əminliklə demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

### Reallaşan vədlər...

Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən Azərbaycan həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu. Prezidentin ilk vədi bu oldu: ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyondan çox iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi. Ölkə Prezidenti deyirdi: "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq". Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu.

Ən əsas məsələ isə bütün dünyanı bürüyən COVID-19 pandemiyasıdır ki, bu gün Azərbaycan pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Belə ki, Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi.

Ardı Səh. 3

# 15 Oktyabr - xalqın iradəsi və istəyinin reallaşdığı gün!



## 2003-cü ilin 15 oktyabr tarixində Cənab İlham Əliyevin Prezident seçilməsi...

Əvvəli Səh. 2

### Cənab İlham Əliyev və siyasi varisliyin təntənəsi

"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.",-deyən Azərbaycan Prezidenti İlham Əliyevin qalib lider olaraq bütün öhdəliklərini reallaşdırmaqdadır.

Məhz Heydər Əliyev dühası və onun varisi İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, sabit inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir. İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir.







Prezident İlham Əliyevin rəhbərliyi ilə idarəetmədə aparılan islahatlarda əvvəlcə məmur-vətəndaş təmaslarından elektrona, indi isə elektrondan rəqəmsala keçid baş verir. Eyni zamanda, dövlət idarəetmə islahatları məcburetmədədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə və "kölgə iqtisadiyyat"dan leqallaşmaya keçidi təmin edir. Çünki İlham Əliyevin dövlətlə, dövlətin inkişafı ilə bağlı baxışları məlumdur. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur. Cənab İlham Əliyev fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır. Bütün bunlar cənab İlham Əliyevə Azərbaycanı arzuladığı və bəyan etdiyi kimi müasir dövlətə, əhalisinin sosial rifah halında cəmiyyətə çevrilməsinə imkan verəcəkdir.

### Son 18 il - qalibin məğlub üzərində qələbəsinin qalib lideri İlham Əliyev

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı necə mahir doplomat və sərkərdə qabliyyətini ortaya qoydu. 30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma "Dağlıq Qarabağ" probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili ilə Azərbaycan tarixinə yazıldı. Və Azərbaycan 44 gündə son əsrlərin ən böyük zəfərini yaşayır və ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu.

Ardı Səh. 4

# 15 Oktyabr - xalqın iradəsi və istəyinin reallaşdığı gün!



## 2003-cü ilin 15 oktyabr tarixində Cənab İlham Əliyevin Prezident seçilməsi...

Əvvəli Səh. 3

Vətən Müharibəsinin 44 gün ərzində "Qarabağ Azəbaycandır və QƏLƏBƏ NİDA"-sını qoyan və bununla da tariximizə ən parlaq səhifəsini yazmaqla bir daha sübut etdi ki, bu qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir.

Bu sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən tarixi qələbəsidir! Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirməklə yanaşı Ali Baş Komandanımız 44-cü günün son həftə sevincini də xalqına çatdıran Azərbaycan Prezidenti İlham Əliyev cənablarının "Biz öz Vətənimizə, doğma Qarabağımıza qaydırıq!" xəbəri Azərbaycan xalqına verdiyi ən böyük müjdəsidir!

### "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bu 44 gün həm də "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün bir daha hər bir azərbaycanlının Prezidenti olduğunun reallığıdır.

Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz son 18 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ən əsası isə, noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazılan tarixidir.

### "Bir qarış torpağımızı belə heç kəsə verən deyilik - Qarabağ Azərbaycandır!"

Bəli, son 18 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız "bir qarış torpağımızı belə heç kəsə verən deyilik" xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi"_deyən Müzəffər Ali Baş Komandan bu gün apardığı uğurlu, diplomatik siyasəti ilə sübut etdi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Bəli, xalqımız, bütün dünya dövlətləri və xalqları bir daha gördü ki, 2003-cü il 15 oktyabr prezident seçkisi xalqımızın öz liderinə sevgisinin, inamının nümayişi oldu. Və xalqımızın cənab İlham Əliyevə, onun siyasətinə inamı böyükdür.

Bir sözlə, bütün bunlar onun göstəricisidir ki, Prezident İlham Əliyevin fəaliyyəti hər bir sahədə əhəmiyyətli və kompleks səciyyə daşıyan uğurların qazanılmasını şərtləndirib. Məhz bunun nəticəsidir ki, beynəlxalq leksikonda "milli inkişafın Azərbaycan modeli" anlayışı meydana çıxıb. Dövlət başçısının xalqı qarşısında verdiyi bütün vədləri uğurla yerinə yetirməsi, Onun hər bir azərbaycanlıya və ölkəmizin problemlərinə böyük həssaslıqla yanaşması isə Prezident İlham Əliyevin "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" vədinin mütləq surətdə reallaşdığını bir daha təsdiqləyir. Bu reallıq isə öz əbədiliyi ilə xalqımız tərəfindən qorunur, dəyərləndirilir və sevilir!

Beləliklə güclü xalq, dövlət başçımız İlham Əliyev cənabları hər dəfə Prezidentt seçilməklə güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi, Beləliklə də, 2003-cü il 15 oktyabr prezident seçkiləri ölkəmiz üçün əsil uğur təntənəsi olaraq zamanın axarında öz layiqli yerini tutan Azərbaycan bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

**RƏFİQƏ KAMALQIZI**

## Müdafiə Nazirliyi: Hərbi qulluqçumuz şəhid olub

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri növbəti dəfə terror aktı törədib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də saat 18:15 radələrində qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Həmzəyev Əfqan Bəhram oğlu şəhid olub. Nazirliyin rəhbərliyi şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir!

Bu terror təxribat əməlinin araşdırılması üçün Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə sorğu göndərilib.

Minskdə Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünün keçirildiyi vaxtda Ermənistanın dəstəklədiyi qanunsuz erməni hərbi dəstələri tərəfindən bu terror əməlinin törədilməsi məqsədyönlü təxribatdır. Bu hal, eyni zamanda, Ermənistanın regionda vəziyyəti qəsdən gərginləşdirmək, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının icrasına əngəl yaratmaq və Rusiya sülhməramlılarının fəaliyyətinə kölgə salmaq siyasətinin növbəti sübutudur.

Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bu terror əməlini törətmiş qanunsuz erməni silahlı dəstələrinin neytrallaşdırılması və qanun qarşısında cavab vermələrini təmin etmək üçün qəti addımlar bundan sonra da davam etdiriləcək.





# "Ərdoğanın səfəri bölgə dövlətlərinə bir mesajdır"

*"Qarabağın azad olunmasının 1 illiyi ərəfəsində Füzuli şəhərində Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması çox böyük uğurdur. Bu cənab Prezidentin rəhbərliyi altında Azərbaycan xalqının böyük bir uğuru və müvəffəqiyyətidir. Eyni zamanda dünya birliyinə, beynəlxalq ictimaiyyətə, yaxın və uzaq qonşularımıza da bir mesajdır ki, Azərbaycanın niyyəti bundan sonra sülh, əməkdaşlıq, əmin-amanlıq, dağıdılmış bölgələrimizin bərpası, abadlaşdırılması olacaq". Bunları SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.*

Onun sözlərinə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılış tədbirində iştirak etməsi bu tədbirə əlavə bir stimul verir, zəfər qatır, gücümüzə güc, sevincimizə sevinc gətirir. Şuşada da Ərdoğanın iştirak etməsi, Şuşa bəyannaməsinin qəbul olunması, bundan başqa bizim Qələbə Paradımızda iştirak etməsi və bütövlükdə, həm 44 günlük müharibə dövründə, həm də qələbədən sonrakı bu bir ilə yaxın müddətdə bütövlükdə Türkiyə dövləti və Türkiyə ictimaiyyətinin həmişə Azərbaycan dövlətinin, Prezidentimizin və Azərbaycan xalqının yanında olduğunun bariz nümunəsidir.

Bu haqda Musa Quliyev fikrini belə izah edib: "Bizim işlərimizə həmişə mənəvi, siyasi, qardaş dəstəyini veriblər. Cənab Ərdoğanın burada iştirak etməsi həm də bölgə dövlətlərinə bir mesajdır ki, siz də burada ola bilərsiniz, bizlə bir yerdə ola bilərsiz, bizim məqsədimiz bölgəyə daimi, davamlı sülhü gətirməkdir, inkişafı gətirməkdir və əməkdaşlığımızı hər kəs üçün daha da əlverişli və faydalı etməkdir. Bəli, inşallah bu hava limanı açılacaq. Bundan başqa digər hava limanları da işə düşəcəkdir. Zəngəzur dəhlizi də açılacaq və Azərbaycanın dostu, qardaşı Rəcəb Tayyib Ərdoğan buradakı tədbirlərin hamısında iştirak edəcək.

Bu tədbirin digər əlamətdar tərəfi ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyinin 30 illiyinin keçiriləcəyi bir vaxta düşür. Bu da Azərbaycan dövlətinin 30 il ərzində haradan-hara inkişaf yolunu keçdiyinin əyani nümunəsidir. 30 il bundan öncə biz istiqlalımızı əldə etsək də, istiqlaliyyətin dadını, tamını, ləzzətini tam dada bilməmişdik. Çünki torpaqlarımız işğal altındaydı. Ərazi bütövlüyümüz təmin olunmamışdı. Azərbaycan bayrağı hər yerdə dalğalanmırdı. Bu gün Allaha şükürlər olsun ki, 44 günlük Zəfər savaşında Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı öz tarixi arzusunu reallaşdırdı, yerinə yetirdi. Torpaqlar işğaldan azad edildi. Bundan sonrakı dövr Türkiyə və Azərbaycan aracılığı ilə bögədə sülh, əmin-amanlıq və əməkdaşlıq dövrü olacaq".

***Turqay Musayev***

## İqtisadçı: "Füzuli yeni və müasir standartlara uyğun olaraq qurulan bir şəhər olacaq"



"Füzuli rayonu Qarabağda strateji mövqeyinə görə fərqlənən bölgələrimizdəndir və 44 günlük Vətən müharibəsində Füzuli şəhərinin azad edilməsi müharibədə xüsusən strateji baxımdan vacib uğurlardan biri kimi qiymətləndirilir. Artıq Füzuli şəhəri və bütövlükdə işğal altında olan digər torpaqlarımız azaddır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

Deputatın sözlərinə görə, Füzulidə bütövlükdə yeni bərpa-quruculuq işlərinə qədəm qoyulub: "Füzuli Beynəlxalq Hava Limanı dünyada ən qısa müddətdə inşa edilən hava limanlarından biridir. Artıq ilkin sınaq uçuşları həyata keçirilib və Füzuli Hava Limanı beynəlxalq standartlara uyğun olaraq qurulan və beynəlxalq uçuşları həyata keçirəcək hava limanıdır. Eyni zamanda Füzuli rayonunun nəqliyyat və logistik infrastrukturunun formalaşdırılması istiqamətində işlər intensiv şəkildə həyata keçirilir. Horadiz-Ağbənd dəmiryolu xətti, eləcə də Horadizlə Zəngilanı birləşdirəcək avtomobil yolu, o cümlədən Füzuli-Hadrut, Füzuli-Şuşa Zəfər yollarının inşa edilməsi də ondan xəbər verir ki, işğaldan azad edilmiş torpaqlarımız çox qısa zamanda bərpa və yenidənqurma mərhələsinə qədəm qoyub".

V.Bayramov vurğulayıb ki, artıq bu yeni bir mərhələdir: "Bərpa və yenidən qurmanın daha intensiv şəkildə aparılması və eyni zamanda məskunlaşma prosesinin gözləniləndən daha tez olacağından xəbər verir. Füzuli şəhəri öz tarixində bütövlükdə yeni mərhələyə qədəm qoyur. Biz gülüş və həyatın uzun zamandır işğalda qalan Füzuliyə yenidən qayıtdığını görəcəyik. Füzuli artıq yeni və müasir standartlara uyğun olaraq qurulan bir şəhər olacaq. Bu da təbii ki, Qarabağın həyata yenidən qayıdacağından xeber verir".

***Aysel Məmmədova***



## "Ermənilər Qarabağda tarixi və mədəni abidələrin 95 faizini məhv edib"

**Ermənistanın 30 il ərzində işğal altında saxladığı Qarabağ ərazisində abidələrimizə münasibətdə həyata keçirdiyi vəhşiliyin əsas məqsədi Azərbaycan xalqının əsrlər boyu yaratdığı tarixi, mədəni irsi yer üzündən silmək olub. Uzun illər işğal altında olan, erməniləşdirilməyə və dağıntılara məruz qoyulan daşınmaz tarix-mədəniyyət abidələrimizin vəziyyəti bütün dünyaya bəllidir. İşğalçı Ermənistan tərəfindən əzəli torpaqlarımızdakı İslam mədəniyyəti abidələri tamamilə məhv edilib və ya erməniləşdirilib. İşğaldan azad olunmuş ərazilərdə təşkil edilən monitorinqlər zamanı bu ərazilərdə kitabxanalar, mədəniyyət evləri, mədəniyyət mərkəzləri, klublar, muzeylər, uşaq musiqi məktəbləri və s. mədəniyyət obyektlərinin qeydiyyatı aparılıb və onların hamısının tamamilə dağıdılmış vəziyyətdə olduğu müəyyən edilib. SİA xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Türkiyənin Anadolu agentliyinə müsahibəsində deyib.**

**"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən aparılan ilkin monitorinqlərin nəticələrinə əsasən işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış 706 tarix və mədəniyyət abidəsi var. Apardığımız monitorinq nəticəsində onların 95 faizinin dağıdıldığının şahidi olduq. Bizi ən çox məyus edən məscidlərimizə olan münasibətdir. Erməni vandalları bütün binaları dağıtdıqdan sonra məscidlərdə ev heyvanlarını saxlayıblar. İşğalı nəticəsində ermənilərin Qarabağda dağıdıb viran qoyduqları muzeylər, məscidlər, abidələr tək Azərbaycan xalqının mədəni irsinə deyil, bütün İslam dünyasına, ümumilikdə isə, bəşər mədəniyyətinə qarşı vandalizm aktıdır",- deyə nazir vurğulayıb.**

## Füzulinin işğaldan azad edilməsi-qələbə əzmi



Elşad Mirbəşiroğlu
Milli Məclisin deputatı,
Siyasi elmlər doktoru,
professor

Qarabağ uğrunda apardığımız Vətən müharibəsinin şərtləndirdiyi başlıca dəyişiklik təbii ki, torpaqlarımızın işğal olunması tarixlərinin anılmasını onların işğaldan azad olunması tarixlərinin qeyd edilməsi ilə əvəzlənməsindən ibarət oldu. Ötən ilin payızına qədər xalqımız 1993-cü il 3 avqust tarixində təcavüzkar Ermənistan tərəfindən Füzuli rayonu işğalını anırdı. Artıq yeni bir tarix yaratdıq. Azərbaycan xalqı Füzuli rayonun işğaldan azad olunması tarixini bayram edir. Ötən ilin 17 oktyabr tarixində şanlı Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Füzulini işğalçılardan təmizlədi. 44 günlük Vətən müharibəsinin gedişatına ciddi təsir edən Füzuli qələbəsi qəti sübut etdi ki, Ermənistan ordusu Azərbaycan Ordusundan qat-qat zəifdir. Ümumiyyətlə, elə müharibənin ilk günlərindən Azərbaycanın apardığı müharibə, tətbiq etdiyi taktika və texnikalar ətrafında beynəlxalq səviyyədə müzakirələr getməyə başladı. Müxtəlif müstəvilərdə Azərbaycanın inamlı qələbəsi fərqli səbəblərlə izah olunurdu. Təbii ki, üstünlük təşkil edən fikir ondan ibarət idi ki, Ermənistan ordusu həm şəxsi heyətin hazırlığı, həm də maddi texniki təchizatı baxımından Azərbaycan Ordusu ilə müqayisə oluna bilməzdi. Bütün mənalarda güclü Azərbaycan Ordusunun qələbə çalması qaçılmaz idi. Dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusu müharibənin elə ilk həftələrində işğal altında olan ərazilərimizin həm coğrafi, həm də siyasi cəhətdən əhəmiyyətli hissələrinin azad olunması ilə bağlı starteji hədəflərinə çatmağı bacardı. Ermənistan işğalçılıq siyasəti yürütməklə, özünü regionda təcrid vəziyyətinə saldı. Yəni, bu işğalçılıq siyasəti bumeranq effekti ilə təcavüzkar Ermənistanın özünə zərbə vurdu. Heç bir uğurlu sosial-iqtisadi xarakterli addım atmaq və müvafiq olaraq, ordusunu təchiz etmək imkanına malik olmamaq məhz işğalçılıq siyasətinin nəticəsidir. Havadarları Ermənistanı hərtərəfli dəstəklələmələrinə baxmayaraq, yenə də zəif vəziyyətdə qaldı. Vətən müharibəsi Azərbaycanın gücünü, Azərbaycan Prezidenti cənab İlham Əliyevin iradəsini, uzaqgörənliyini, Ermənistanın isə zəifliyini, rəhbərlərinin cılızlığını bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın təşəbbüsləri və birbaşa iştirakı ilə regionda strateji enerji və nəqliyyat layihələri həyata keçirildi. Qlobal təhlükəsizliyin təmin olunmasında ölkəmizin, ayrıca olaraq Prezidenti İlham Əliyevin təsirli rolu Azərbaycanın dostlarının sayını əhəmiyyətli dərəcədə artırdı. Bütün bunlar Vətən müharibəsindəki hərbi qələbəmizin həlledici siyasi komponentlərini formalaşdırdı. Belə olan halda Azərbaycan həm geniş hərbi-texniki əməkdaşlıq imkanları qazandı, həm də keçmiş münaqişə vəziyyətində özünün haqlı mövqelərini dünyanın əsaslı hissəsinə qəbul etdirdi.

Ciddi iqtisadi potensial inamlı qələbəni təmin edən müharibə aparmağa imkan verdi. Azərbaycan vətəndaşları özlərinin sosial-iqtisadi vəziyyətlərində ölkənin müharibə apardığının hiss etmədilər. Nəzərə almaq lazımdır ki, bu, dünya tarixində çox nadir hallarda rast gəlinən haldır. Çünki, münaqişənin ən kəskin və qorxulu forması olan müharibə hər zaman hərb böyük maddi, həm də insani itkiləri şərtləndirir. Azərbaycanın apardığı azadlıq müharibəsi isə tam fərqli təcrübə təqdim etdi. Bu, onun göstəricisi idi ki, Azərbaycan həm güclü orduya, həm də güclü iqtisadiyyata malikdir. Məşhur Herodot deyirdi ki, müharibə qələbəni sevir, davamlılıqdan qorxur. Yəni, müharibə davam etdikcə, daha böyük resurslar tələb olunur. Azərbaycanın 44 günlük vətən müharibəsi dövründə zərrə qədər də olsun resurs qıtlığı olmadı. Bundan başqa, bir qayda olaraq, müharibə zamanı hücuma keçən tərəf daha böyük itkilər verir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun müəyyənləşdirdiyi hücum taktikası o dərəcədə unikal oldu ki, düşmənin otuz il boyunca qurduqları müdafiə xətlərini elə ilk həftələrdəcə yarıb keçməyə imkan verdi.

2020-ci ilin 17 oktyabr tarixində Füzuli şəhərinin və onun ətraf ərazilərinin işğaldan azad edilməsi Vətən müharibəsində ölkəmizin hərbi-taktiki üstünlüyünü dönməz şəkildə təmin etdi. Füzulinin malik olduğu unikal coğrafi mövqe və kommunikasiya imkanları digər ərazilərimizin düşməndən təmizlənməsində təsirli rol oynadı. Bu hərbu nailiyyət Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin gücünü, qüdrətini, Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya nümayiş etdirdi.

# İşğaldan azad olunan ərazilərin bərpasına dost ölkələr töhfə verir






**Azərbaycan sülhsevər, tolerant, multikultural dövlət olaraq bütün dünya ölkələrinin maraq dairəsindədir. Ölkəmizin sabit, dinamik inkişafı, hökm sürən əmin-amanlıq, dünya ölkələri, beynəlxalq təşkilatlarla qurduğu əlaqələr, strateji əməkdaşlıq və s. şərtləndirici amillər ölkəmizi dünya ölkələrinə daha da yaxınlaşdırıb. 44 günlük Vətən müharibəsində də Azərbaycanda baş verən proseslər dünyanın diqqətindən kənarda qalmadı.**

Dünyanın KİV nümayəndələrinin müharibəni işıqlandırmaq məqsədi ilə Azərbaycana ezam olunmaları, eləcə də həmin zaman Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın 30-dan artıq KİV-lərə verdiyi müsahibələr dünyanın ən aparıcı ölkələrinin ölkəmizə olan diqqətinin təzahürü idi. Artıq müharibədən bir il ötüb. Amma yenə də dünya mətbuatı, dünyanın aparıcı ölkələrinin diqqəti ölkəmizdədəir. Regiondakı vəziyyət və müharibədən azad olunan ərazilərimizdə aparılan abadlıq və quruculuq işləri və s. diqqətdədir. Son günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı ölkələrinin KİV nümayəndələrinə verdiyi müsahibələr Azərbaycan reallıqlarını əks etdirir.

## "PLANIMIZ KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİN DOĞMA EVLƏRİNƏ ƏN QISA ZAMANDA QAYTARILMASIDIR"

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibədə işğaldan azad olunan ərazilərə artıq sərmayə yatırıldığını bildirib: "Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir. Bu ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq".

Cənab Prezident hazırda avtomobil və dəmir yollarının inşa edildiyini qeyd edərək, azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanının hazır olduğunu diqqətə çatdırıb: "Artıq o, ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. Bununla yanaşı, biz artıq yaşayış binalarının tikintisi layihələrinə başlamışıq. İki şəhərin Baş planı təsdiq edilib və işlərə start verilib. Yəni, biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır".

## "BİZ BÖYÜK QAYIDIŞLA BAĞLI YENİDƏNQURMA LAYİHƏLƏRİNƏ YALNIZ DOST ÖLKƏLƏRDƏN OLAN ŞİRKƏTLƏRİ DƏVƏT EDƏCƏYİK"

Əlbəttə ki, işğaldan azad olunan ərazilərdə Azərbaycana dost olan ölkələr yenidənqurma işlərinə töhfə verəcəklər. Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İtaliya, Çin, İsrail, Belarus kimi dövlətlər ərazilərimizin bərpası prosesində iştirak etmək arzularını ifadə ediblər. İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişafının nəticəsi olaraq İtaliya da tariximizin çətin zamanında ölkəmizlə həmrəylik nümayiş etdirdi. Əlbəttə ki, İtaliya Azərbaycana dost olan ölkələr sırasındadır. İkitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəltmişdir. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb. Azərbaycan ilə strateji tərəfdaş olan İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində italyan şirkətləri də çox fəallıq göstərəcəklər. Azərbaycana dost olan İtaliya şirkəti ilə enerji istehsalı barədə müqavilə imzalanıb. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün böyük potensial var. Bunlar yenilənən enerji mənbələrindən - su, günəş və küləkdən alınan enerjilərdir. Ölkəmiz azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də yararlanmaq niyyətindədir. "İtaliyanın yenidənqurma işlərinə cəlb edilməsi nəzərdə tutulurmu və ya İtaliya artıq bu işlərdə iştirak edirmi?" - sualına cavab olaraq Cənab Prezident bildirib ki, İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir: "İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq".




## Prezident İlham Əliyev: "İtalyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq"

## "BƏZİ XIRDA İNSİDENTLƏR İSTİSNA OLMAQLA ƏZİYYƏT SABİTDİR VƏ ÜMUMƏN BİZ BUNDAN RAZIYIQ"

Rusiyanın sülhməramlı vasitəçiliyinə gəlincə isə, Cənab Prezident ümumilikdə biz bundan məmnunuq, - deyə bildirib. "Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib", - deyən Cənab Prezident bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyətin sabit olduğunu bildirib: "Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır".







***Nəzakət ƏLƏDDİNQIZI***




# Milli Məclisin sədri: **Tarix boyu Azərbaycanda qadınlar xüsusi diqqət və qayğı ilə əhatə olunublar**

**Oktyabrın 13-də Rusiyanın Sankt-Peterburq şəhərində Üçüncü Avrasiya Qadın Forumunun plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova forumda müzakirəyə təqdim olunan mövzuların qadınların müasir dünya proseslərində rolu ilə bağlı geniş fikir mübadiləsi aparmağa imkan verdiyini söyləyib. Qeyd edib ki, qadınların bərabərliyi, ədaləti və tərəqqini təşviq etmək səyləri öz bəhrəsini verir və bu gün dünyanın bir çox ölkələrində qadınlar gələcəyə daha böyük inamla baxırlar.**

Milli Məclisin sədri vurğulayıb ki, müasir dünyada baş verən dəyişikliklər, sosial-iqtisadi inkişafın sabit və dinamik tendensiyaları cəmiyyətin sosial quruluşunda qadınların statusunun yeni məzmun qazanmasına səbəb olur. Bu gün qadınlar qlobal problemlərin qarşısının alınması, o cümlədən COVID-19 pandemiyasının nəticələrinin aradan qaldırılması, eləcə də bütün dünyada sülh, təhlükəsizlik və davamlı inkişaf uğrunda mübarizədə beynəlxalq səylərə əhəmiyyətli töhfə verirlər.

Çıxışında ölkəmizdə həyata keçirilən qadın siyasətinin tarixi və uğurları barədə məlumat verən S.Qafarova deyib ki, tarix boyu Azərbaycanda qadınlar hər zaman xüsusi diqqət və qayğı ilə əhatə olunublar. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması azərbaycanlı qadınların cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar açdı. O, xüsusilə xatırladıb ki, həmin dövrdə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlar kişilərlə bərabər seçmək və seçilmək hüququnu əldə ediblər.

Müasir dövrdə ölkəmizdə qadınlarla bağlı həyata keçirilən dövlət siyasətinin qayəsinin onların siyasi, sosial, iqtisadi və mədəni hüquqlarını həyata keçirmək, gender bərabərliyini təmin etmək, dövlət idarəçiliyində iştirakını genişləndirmək olduğunu bildirən S.Qafarova vurğulayıb ki, bu siyasətin əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası müəyyən edir. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb və sonradan bu qurum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adlandırılıb. 2000-ci ildə ölkə Prezidenti Azərbaycanda yeni dövlət qadın siyasətinin həyata keçirilməsi ilə bağlı Fərman imzalayıb. Həmin Fərmanın məqsədi dövlət idarəçiliyində, biznesdə və iqtisadiyyatda qadınların bərabər təmsilçiliyini təmin etməkdir. Həmin il Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edilib. Bu proqram Pekin platforması əsasında hazırlanıb. Bu sənəddə silahlı qarşıdurmalar mövzusuna xüsusi diqqət yetirilib. Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin son 30 ildə qadınlar da daxil olmaqla bir çox Azərbaycan vətəndaşının həyatına son qoyduğunu xatırladan Sahibə Qafarova əlavə edib ki, münaqişənin nəticələrinin yaratdığı problemlər, o cümlədən qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklər qadınların da çiyinlərinə düşüb.

Ötən ilin noyabrında Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın keçmiş Qarabağ münaqişəsinə son nöqtəni qoyduğunu söyləyən Milli Məclisin sədri deyib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbədən sonra Cənubi Qafqaz regionunda qadınlarımızın cəmiyyətin bütün sahələrinə daha fəal cəlb edilməsi üçün perspektivlər yaradan yeni reallıqlar ortaya çıxıb.

Sahibə Qafarova vurğulayıb ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlər qadınlarla bağlı dövlət siyasətinin bütün sahələrində əhəmiyyətli irəliləyişə səbəb olub. Ölkəmizdə aparılan sistemli islahatlar, regionların sosial-iqtisadi inkişafına yönəlmiş geniş dövlət proqramları qadınların həyatına müsbət təsir göstərir. Bu sahədə qəbul edilmiş qanunlar gender bərabərliyinin təmin edilməsi işinin daha da təkmilləşdirilməsinə imkan verir. O vurğulayıb ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva qadın hüquqlarının qorunması, qadınların dövlət və ictimai həyatda rolunun artırılması istiqamətində daha böyük uğurlar əldə olunmasına xüsusi töhfələr verir. Azərbaycanın Birinci vitse-prezidenti çoxşaxəli və uğurlu fəaliyyəti ilə qadınlarımızı öz potensiallarını daha böyük əzmlə reallaşdırmağa ruhlandırır.

Qadın hərəkatının inkişafı və qadın ictimai təşkilatları ilə dövlət strukturları arasında sosial tərəfdaşlığın gücləndirilməsi qadınların sosial müdafiəsinin möhkəmlənməsinə müsbət təsir göstərir. Milli Məclisin sədri qeyd edib ki, qadınların potensiallarının bütünlüklə üzə çıxarılması, onların hüquq və imkanların genişləndirilməsi daha sağlam və firavan cəmiyyətlər qurulmasının zəruri şərtidir.

# Azərbaycan XİN: **Ermənistanın təxribatı vəziyyətin gərginləşdirilməsinə xidmət edir**

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) oktyabrın 14-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Həmzəyev Əfqan Bəhram oğlunun şəhid olması ilə bağlı məlumat yayıb.**



Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib. Məlumatda deyilir: "Bu terror-təxribat əməlini kəskin şəkildə qınayırıq. Ermənistanın dəstəklədiyi qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilən bu təxribat Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərinin kobud pozulmasıdır və bölgədəki vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirildiyi bir vaxtda erməni silahlı dəstələrinin törətdiyi bu təxribat Ermənistan tərəfinin revanşist mövqeyini nümayiş etdirməklə yanaşı, Rusiya sülhməramlılarının fəaliyyətinə əngəl törətmək cəhdlərini göstərir.

Allah Şəhidimizə rəhmət eləsin".

# Kaliforniyanın ikinci ən böyük şəhərində oktyabrın 18-i Azərbaycan Günü elan olunub

**Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə əlaqədar ABŞ-ın Kaliforniya ştatının ikinci ən böyük şəhəri olan San-Dieqo şəhərinin meri Tod Qloria xüsusi bəyannamə imzalayaraq, 18 oktyabr tarixini San-Dieqo şəhərində "Azərbaycan Müstəqilliyinin Bərpası Günü" elan edib.**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Bəyannamədə bildirilir ki, Azərbaycan 1991-ci ilin oktyabrın 18-də müstəqilliyini bərpa edərək, özünü 1918-ci ilin 28 may tarixində yaradılmış, müsəlman dünyasında ilk dünyəvi respublika olan və qadınlara ilk dəfə səsvermə hüququ verən Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edib.


The City of San Diego

Proclamation

Presented By
Mayor
Todd Gloria

**Azerbaijan's Restoration of Independence Day**

October 18th, 2021

**WHEREAS,** thirty years ago, on October 18, 1991, the people of Azerbaijan restored their country's freedom and independence by establishing the Republic of Azerbaijan and declaring it the successor to the Azerbaijan Democratic Republic (1918-1920), which was the first secular parliamentary democracy in the Muslim world, granting voting rights to women in 1919 for the first time among Muslim nations; and

**WHEREAS,** over the last 30 years, the Republic of Azerbaijan has consolidated its freedom, sovereignty and independence, and has become a staunch and strategic ally and the largest trade partner of the United States of America in the critically important South Caucasus region; and

**WHEREAS,** the Republic of Azerbaijan is internationally regarded as a successful model for peaceful and harmonious coexistence of Muslims, Christians, and Jews; and

**WHEREAS,** every year, millions of Azerbaijanis around the globe, including tens of thousands in the U.S. and many in the City of San Diego, observe October 18 as Azerbaijan's Restoration of Independence Day and remember the contributions of their forefathers to the spread of democracy in the regions of Caucasus, Central Asia and Middle East, as well as celebrate the remarkable achievements made by the Republic of Azerbaijan as a free and independent nation; **NOW, THEREFORE,**

**BE IT PROCLAIMED,** that I, Todd Gloria, the 37th Mayor of the City of San Diego, for and on behalf of the people of San Diego, do hereby proclaim October 18th, 2021, to be **"AZERBAIJAN'S RESTORATION OF INDEPENDENCE DAY"** in the City of San Diego.

IN WITNESS WHEREOF, I HAVE HEREUNTO SET MY HAND, THIS DAY, AND HAVE CAUSED THE SEAL TO BE AFFIXED HERETO:

Todd Gloria
MAYOR
October 18th, 2021
DATE

Qeyd olunur ki, Azərbaycan 30 il ərzində öz müstəqilliyini və suverenliyini möhkəmləndirərək, ABŞ-ın Cənub Qafqaz bölgəsində strateji müttəfiqinə və ən böyük ticarət tərəfdaşına çevrilib. Həmçinin vurğulanır ki, bu gün Azərbaycan beynəlxalq aləmdə müsəlman, xristian və yəhudilərin sülh və harmoniya içərisində yaşadığı uğurlu model kimi tanınır.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu və Los-Anceles Konsulluq Korpusunun duayeni Nəsimi Ağayev San-Dieqo şəhərinin meri T.Qloriyaya təşəkkür edərək, San-Dieqo ilə Bakı arasında 2011-ci ildə yaradılmış və çoxsaylı tədbirlər və qarşılıqlı səfərlərlə son 10 il ərzində gücləndirilmiş tərəfdaşlıq münasibətlərindən məmnunluğunu bildirib. Oktyabrın 18-də Bakı-San-Dieqo tərəfdaşlığının 10-cu ildönümünün də tamam olduğunu qeyd edən baş konsul, bu münasibətlərin qarşıdakı dövrdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

# İlham Əliyev: "Biz Hadrut əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik"



"Bu gün Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Sizi və bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq". Bunu Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

Dövlət başçısı bildirib ki, bu gün artıq Hadrutun və ümumiyyətlə, Qarabağın yeni dövrü başlayır: "Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq". Dövlət başçısı Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malik olduğunu bildirərək vurğulayıb ki, Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi: "Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda direniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar".

## "Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı"

Bəli, dövlət başçımızın dediyi kimi: "Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı". Bu gün artıq Hadrutun və ümumiyyətlə, Qarabağın yeni dövrü başlayır. Çünki dövlət başçımızın dediyi kimi: "Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq".

Bəli, dəmir yumruğun gücü və güclü, şanlı ordumuzun igid əsgər və zabitlərimizin qanı, canı bahasına işğalçıları doğma torpaqlarımızdan it kimi qovaraq ədaləti bərpa etdilər, doğma torpaqlarımızı mundarların əlindən qurtardılar. Artıq bu gün azad olunmuş torpaqlarımız böyük quruculuq meydanına çevrilib, bir sözlə Qarabağın yeni dövrü başlayır. "Bu gün çox tarixi və müqəddəs gündür. Biz doğma Xocavənddəyik. Mən çox yaxşı başa düşürəm ki, biz bu xoşbəxt anları yaşamaq üçün kimə borcluyuq. Öncə Sizə cənab Prezident, Müzəffər Ali Baş Komandan! Sizin müdrik siyasətinizə, qəhrəman və güclü Ordumuza. Xalqımız şəhidlər verdi. Biz onların qarşısında baş əyirik, Allah onlara rəhmət etsin". Bu fikirləri Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. Bildirib ki, bu gün Hadrutun və ümumiyyətlə, Qarabağın yeni dövrü başlayır. Və Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik: "Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik".

## Hadrutun işğaldan azad edilməsi ilə Şuşaya gedən yol açılırdı

Hərbi-strateji əhəmiyyəti baxımından Hadrutun azad edilməsi 44 günlük savaşın taleyini müəyyən etdi. Elə bu günlərdə Prezident İlham Əliyev Hadrut qəsəbəsində milli bayrağımızı qaldırarkən qəsəbənin önəmini belə vurğuladı: "Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi".

Prezident İlham Əliyev bu məsələyə toxunaraq, erməni yalan təbliğatının da iflasa uğradığını göstərib: "Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər, eyni zamanda Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı? Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir. Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurla keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq".

## Hadrutdan verilən mesaj...

Bəli, haqq savaşımız dövründə xalqımız bütün dünyaya öz birliyini, ruh yüksəkliyini və vətənpərvərliyini nümayiş etdirdi. Və bu gün Ali Baş Komandanımız işğaldan azad olunmuş torpaqlarımıza səfərləri zamanı hər dəfə çıxışlarında işğalçı Ermənistanın çirkin niyyətlərini və əməllərini dünyaya faktlarla açıq şəkildə çatdırıb.

Prezident İlham Əliyev Hadrut qəsəbəsinə səfəri zamanı da bir daha qazandığımız qələbə ilə bağlı bildirib ki, Azərbaycan xalqı 44 günlük müharibədə bir daha ədaləti bərpa etdi: "Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi".

## "Azərbaycan Ordusu mülkü erməni əhalisini hədəf seçməyib və yalnız terrorçulara qarşı əməliyyat keçirib"

Prezident İlham Əliyevin çıxışında toxunduğu bir məqam xüsusilə diqqəti çəkir - Azərbaycan Ordusu mülkü erməni əhalisini hədəf seçməyib və yalnız terrorçulara qarşı əməliyyat keçirib. "Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi", - deyə Prezident Hadrutdakı çıxışında da qeyd edib.

Bu, Azərbaycan xalqının mənəvi dəyərlərinin nə qədər yüksəkdə olduğunun bariz nümunəsidir. Ali Baş Komandanın da qeyd etdiyi kimi, Azərbaycan əsgəri heç vaxt mülki erməni əhalisinə atəş açmayıb, onun hədəfi heç vaxt mülki ermənilər, dinc əhali olmayıb. Ermənistan hakimiyyəti isə ötən əsrin 90-cı illərində olduğu kimi, bu dəfə də məhz dinc azərbaycanlıları terrora məruz qoydu. 44 günlük savaş ərzində ermənilər Gəncədə, Bərdədə, Tərtərdə, Mingəçevirdə və digər ərazilərdə mülki insanları qətlə yetirdilər. Bu, ermənilərin ilk anti-insani və hərbi cinayətləri deyildi. Səfər zamanı Prezident İlham Əliyev azad edilmiş ərazilərdəki böyük quruculuq işləri və infrastruktur layihələrinin icrasına başlanılmasının anonsunu da verdi: "Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq".

Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan qələbə qazanmaq üçün müharibədə olduğu qədər işğaldan azad olunmuş ərazilərin bərpası və qurulmasında, eyni zamanda, həmin ərazilərdəki mədəniyyət, tarixi-dini abidələrin bərpası və qorunmasında da qətiyyətlidir.

**RƏFİQƏ KAMALQIZI**

# İsrailli jurnalist yeni müharibəni istisna etmədi



**44 günlük İkinci Qarabağ müharibəsindən sonra regionda geosiyasi reallıqların dəyişməsi və Azərbaycanın mövqeyinin daha da gücləndirilməsi nəticə etibarı ilə kapitulyasiya aktına imza atmış Ermənistanı bütün cəhətlərdən çıxılmaz vəziyyətə salıb. Lakin buna baxmayaraq, daha heç vaxt dəyişilməyəcək reallıqları qəbul etmək istəməyən İrəvan Bakının böyük sülh sazişi imzalamaq təşəbbüslərinə müsbət cavab verməyə tələsmir. Bununla sanki hər hansı vaxt udacağını düşünən Ermənistan rəhbərliyi əslində özünü daha ağır situasiyaya doğru sürükləmiş olur.**

SİA xəbər verir ki, mövzu ilə bağlı israili jurnalist, İqtisadi dünyanın mərkəzi nəşrinin redaktoru Reyçel Avraam caliber rusdilli saytına müsahibə verib və həmin müsahibədəki maraqlı məqamları tərcümə edərək oxucu auditoriyamızın diqqətinə çatdırırıq.

## İsrailli jurnalist: "Ermənilər həm iqtisadi, həm də siyasi cəhətdən əzab çəkməyi üstün tuturlar, ta o zamana qədər ki, Azərbaycandan qisas alsınlar"

Azərbaycanla Ermənistan arasında sülh sazişinin olmadığı situasiyada regiondakı hadisələrin necə inkişaf edəcəyi ilə bağlı sualı cavablandıran israilli jurnalist bu sualın çətin olduğunu bildirərək əslində bir neçə faktorun nəzərə alınmalı olduğunu deyib. SİTAT: "İranın Azərbaycanla münasibətlərindəki çox gərgin atmosferi və Ermənistandan İrana gedən yeganə yolun bir hissəsinin Azərbaycanın nəzarəti altında olduğunu nəzərə alaraq, hesab edirəm ki, rəsmi şəkildə sülh müqaviləsi imzalanmırsa, Azərbaycan istənilən halda Ermənistandan hiylə gözləməlidir. Axı, İrəvan status-kvonu dəyişmək üçün hər şeyi etməyə hazırdır, bunun üçün də gücünü artırır. Hər halda Azərbaycanın Ermənistanla nəticə sülh yolu ilə həll edəcəyini düşünmürəm".

Onun sözlərinə görə, ermənilərin milli ideologiyaları onların sülh sazişini imzalamalarına mane olur. SİTAT: "Onar özlərinin "miatsum" ideyalarına qarışıblar, onlar "böyük Ermənistan" yaratmalarını bütün dünyaya sübut etmək və göstərmək üçün özlərini yırtırlar. Məhz bu səbəbə görə onlar kompromisə gedə bilmirlər və Azərbaycanla sülh müqaviləsi imzalamırlar. Ermənilər həm iqtisadi, həm də siyasi cəhətdən əzab çəkməyi üstün tuturlar, ta o zamana qədər ki, Azərbaycandan qisas alsınlar"

## Avraam: "Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında yeni toqquşmalar baş verəcək"

Yeni müharibənin mümkünlüyü barədə də fikir bildirən Reyçel Avraam bu suala nüsbət cavab verib. "Düşünürəm ki, bəli. Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında yeni toqquşmalar baş verəcək. Ermənilər mövcud vəziyyətlə barışmağı nə istəyir, nə də bunu arzu edirlər və əlbəttə ki, Qarabağı itirmək onlar üçün böyük zərbədir", deyə İsrail nəşrinin redaktoru bildirib. O, buna misal olaraq ermənilərin qanunsuz yaşadıqları işğal altındakı ərazilərimizi tərk etdikləri vaxt fermaları, ağacları, çayları, hətta müqəddəs məkanları necə məhv etdiklərini göstərib.

İranın Azərbaycana qarşı məlum münasibətinə də aydınlıq gətirməyə çalışan Reyçel Avraam burada hər şeyin kifayət qədər aydın olduğunu deyib.

## İsrailli redaktor güclü Azərbaycanın Tehran rejimi üçün ciddi təhlükə olması qənaətindədir

SİTAT: "Tehran Azərbayacana qarşı çox düşməncəsinə münasibət nümayiş etdirir və ilk növbədə ona görə ki, İran hakimiyyəti özünü yəhudilərə, xrsitianlara, bəhailərə və s. konfensiyalara, milli azlıqlara qarşı tolerant olduğunu göstərməyə çalışır. Halbuki, belə deyil və ona görə də mollakratiya rejimi üçün şiəliyin üstünlük təşkil etdiyi Azərbaycandakı islamın dözümlülük formasını müşahidə etmək dəhşət yaradır.

İkincisi, iranlılar güclü Azərbaycanı təhlükə kimi görürlər, belə ki, İranin böyük hissəsi tarixi olaraq Azərbaycanın olub. Təbriz Azərbaycan şəhəri olub. Tehran cənubi azərbaycanlıların ayrılaraq Azərbaycanın tərkib hissəsinə qatılmasından ehtiyat edir. Beləliklə, güclü Azərbaycan onların rejimi üçün ciddi təhlükədir, ona görə də Ermənistanı dəstəkləyir və Bakıya qarşı təxribatçı fəaliyyətlər göstərirlər".

## Reyçel: "Mən həmin məqamdan ehtiyat edirəm ki, Rusiya Azərbaycana münasibətdə səmimi davranmasın"

Qarabağdakı Rusiya sülhməramlılarının fəaliyyətləri və üzərlərinə düşən öhdəlikləri yerinə yetirib-yetirməmələri barədə sualı cavablandıran Reyçel Avraam bildirib ki,rusların Qarabağdakı mövcudluğu ermənilərin Azərbaycana qarşı təxribatlarının qarşısını alır. SİTAT: "Nə vaxta qədər ki, Azərbaycanın Rusiya ilə münasibətləri yaxşıdır, Moskva Bakını dəsətkləyəcək. Lakin mən həmin məqamdan ehtiyat edirəm ki, Rusiya Azərbaycana münasibətdə səmimi davranmasın. Belə olan halda rus sülhməramlıları Ermənistanın insanlığa qarşı cinayətlərini susqun şəkildə müşahidə edənlərə çevriləcəklər. Necə ki, BMT susqun şəkildə Ruandadakı soyqırımında xutuların günahsız tutsiləri necə qətlə yetirmələrini susqunluqla müşahidə edirdi. Ancaq burada bütün hallarda qeyd etmək yerinə düşərdi ki, Rusiya hələ ki, Azərbaycana qarşı yaxşı davranır, bu səbəbdən də erməni təxribatlarından, eksesslərdən yayınmaq mümkün olacaq. Bu, Bakının Moskva ilə münasibətlərinin yaxşı olduğu müddətdə davam edəcək".

***Rövşən RƏSULOV***




# Vüqar Rəhimzadə: "Azərbaycana qarşı böhtan və qarayaxmalar heç bir əhəmiyyət kəsb etmir"



"44 günlük İkinci Qarabağ münaqişəsi 30 illik işğal, həmçinin müharibə dövrünün reallıqlarına aydınlıq gətirməklə yanaşı, perspektivlərin müəyyənləşdirilməsinə, yeni əməkdaşlıq formatlarının yaranmasına yol açdı. Bu baxımdan ki, 30 ildə işğalçı Ermənistana və ona havadarlıq edən supergüclərə "sirr", amma ədaləti və beynəlxalq hüququ dəstəkləyən dövlətlərə bəlli olan məqamlar bir daha işıq üzü gördü, münaqişənin həlli prosesinin uzanmasının səbəbləri açıqlandı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi dövründə 30-dan artıq xarici KİV-lərə müsahibələrinin hər biri bu reallıqların təbliğində əhəmiyyətli rol oynadı. Ən əsası Prezident İlham Əliyev diplomatik şəkildə, təmkin nümayiş etdirərək, bir çox hallarda qərəzi özündə ehtiva edən sualları cavablandırmaqla Azərbaycanın haqlı olduğunu, mövqeyinin ədalətə və beynəlxalq hüquqa əsaslandığını konkret faktlarla ortaya qoydu. Həmin dövrdə dövlət başçısı İlham Əliyevin müsahibələri sırasında İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsi də diqqətdən kənarda qalmadı. Dövlət başçısı İlham Əliyevin müharibə dövründə "La Repubblica" qəzetinə müsahibəsi ilə bu il oktyabrın 13-də sözügedən nəşrdə yer alan müsahibəsini müqayisə etdikdə fərqli məqamları görməmək mümkün deyil. Bu baxımdan ki, artıq münaqişə tarixə qovuşub, postmüharibə dövrünün reallıqlarını yaşayırıq. Hazırda diqqət göstərilən məsələ işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, bu ərazilərə investisiyaların yatırılmasına yaradılan şərait geniş müzakirə mövzusudur. Digər bir tərəfdən isə bu ərazilərə invetisiya yatıran xarici şirkətlər arasında İtaliyaya da məxsus olanlar var. Dövlət başçısı İlham Əliyev müsabihəsində bu məqamı xüsusi qeyd etmişdir ki, İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir. Bu, təsadüfi deyil. Prezident İlham Əliyev Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyini bildirmişdi. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər, Memorial, İşğal muzeylərinin yaradılmasında iştirak edir. Bütün bunlar artıq iki ölkə arasında münasibətlərin hazırkı səviyyəsinin aydın mənzərəsini yaradır."

Bu fikirləri Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti müsahibədə son zamanlar İranla münasibətlərdə narahatlıq doğuran məqamlara, eyni zamanda, Qərbin qərəzli mövqeyinə Prezident İlham Əliyevin münasibətinə yönəldib: "Ölkə Prezidentinin də vurğuladığı kimi, dövlətimizin xarici siyasəti çox açıq, şəffaf, sabit və müstəqildir. Heç bir ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz. "Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir" bəyan edən dövlət başçısı bir daha anti-Azərbaycan dairələrə lazım olan mesajları çatdırdı"

YAP Xətai rayon təşkilatının sədri bu reallığı da qeyd edib ki, İkinci Qarabağ müharibəsində Qələbəmiz bir çox dairələri narahat etdi: "Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirdilər. İndi isə Azərbaycanın diktə edən tərəf kimi çıxış etməsi, təbii ki, həmin dövlətlərdə qısqanclıq hissi yaratmaya bilməzdi. Nəzərə alsaq ki, həmin dövlətlərin işğalçı Ermənistana böyük sevgiləri vardır, bu nöqteyi-nəzərdən Ermənistanı məğlub görmək istəməyən dairələrə Zəfərimiz böyük zərbədir. Azərbaycan 30 ilin işğalına 44 gündə son qoyaraq BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etməklə özünün hərbi qüdrətini və yenilməz siyasi iradəsini bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, Azərbaycan Zəfərdən sonra bəzi ermənipərəst Qərb dairələri tərəfindən qarayaxma kampaniyası ilə qarşılaşacağını da bilirdi. Çünki zaman-zaman belə kampaniyalar aparılıb və hər dəfə Azərbaycanın reallıqlarının fonunda iflasa uğrayıb. Dövlət başçısı İlham Əliyevin "La Repubblica" qəzetinə müsahibəsində yer alan "Bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq. Bizi iradələrinə tabe etdirmək istəyirlər. Mən isə deyirəm: Yox! Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm. Bütün həmin çirkin hekayələrin isə mənim və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur" bəyanatı ölkəmizə, dövlət başçısına qarşı qərəzli mövqe nümayiş etdirən, əsassız fikirlər səsləndirən dairələrə tutarlı cavabdır."

Vüqar Rəhimzadə belə bir ümumiləşdirməni də aparıb ki, daim siyasətində müstəqil olan, istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə münasibətlər quran, dövlət maraqlarını və xalqın iradəsini öndə saxlayan Azərbaycan 44 gündə tarixi Qələbəsi ilə ədalətə deyil, maraqlara üstünlük verən və bu səbəbdən də yalnış yol tutaraq qərəzli addımlar atan dövlətlərə əsl həqiqəti diktə edir: "Bu gün maraqları naminə Ermənistana sevgi nümayiş etdirən dövlətlər Azərbaycanın Vətən müharibəsinin getdiyi vaxtlarda təzyiqlərə baxmayaraq savaşı sonadək davam etdirib təcavüzkarı kapitulyasiya aktına imza atmağa məcbur etdiyini unutmasınlar. Bu mesaj hazırda da öz aktuallığını qoruyur: Dəmir yumruq yerindədir. İstər Ermənistan, istərsə də ona havadarlıq edən dövlətlər Azərbaycana qarşı belə yanlış addımlardan çəkinməli, həqiqəti ortaya qoymaqla ölkəmizin təklif etdiyi sülh müqaviləsinin imzalanmasına, münasibətlərdə yeni səhifənin açılmasına dəstək olmalıdırlar. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, sülh təklifi masa üzərində əbədi qala bilməz."



# Vətən müharibəsində sağlamlığını itirənlər aktiv həyata qaytarılır

**Azərbaycan xalqı mərd və cəsarətli oğulları ilə qürür duyur. Dövlətimiz münaqişənin ədalətli, beynəlxalq hüququn prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində uzun illər çalışsa da, Ermənistan öz niyyətindən əl çəkmədi və 44 günlük Vətən müharibəsində Zəfər qazandı. Bu gün Azərbaycan xalqı qalib xalqdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il Vətən müharibəsində tariximizin şanlı qəhrəmanlıq səhifəsini yazdı. Misili görünməmiş döyüşlərdə əzəli torpaqlarımız Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad olundu.**





## "BİZ BU MÜHARİBƏNİ ŞƏHİDLƏRİMİZİN CANI-QANI BAHASINA, HƏRBÇİLƏRİMİZİN RƏŞADƏTİ HESABINA, DÖVLƏTİMİZİN SİYASƏTİ HESABINA QAZANMIŞIQ"

Müharibə başlayan ilk günlərdən Azərbaycan xalqının igid övladları şücaət, qəhrəmanlıq göstərdilər və Vətən torpaqları uğrunda vuruşdular. Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq". Dövlətimiz tərəfindən Vətən müharibəsinin hər bir şəhid ailəsinə və qaziyə xüsusi həssaslıqla yanaşılır. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir, dəyərlidir.

## "İNSANLAR O PROTEZLƏRDƏN İSTİFADƏ EDİB FUTBOL DA OYNAYA BİLƏRLƏR"









Müharibədə sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmağı üçün dövlətimiz tərəfindən addımlar atılır. Dövlət başçısı çıxışlarının birində onların həyatında yeni dövrün başlandığını bildirmişdir: "Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək".

Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşr ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamı bu istiqamətdə mühüm addımın atılmasına imkan verib..

## QAZİLƏRDƏN ARTIQ 149 HƏRBÇİ YÜKSƏK TEXNOLOGİYALI, SON - 4-CÜ NƏSİL MÜASİR PROTEZLƏRLƏ TƏMİN EDİLİB

Bu gün də Vətən müharibəsində sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa olunması, onların fəal həyata qayıdışı üçün lazımi tədbirlər görülüb. Döyüşlərində əlil olmuş şəxslərin Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən protezlərlə təmin edilir. İkinci Qarabağ müharibəsi qazilərdən artıq 149 hərbçi yüksək texnologiyalı, son - 4-cü nəsil müasir protezlərlə təmin edilib.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıqlarını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan xalça rəssamlığı sənətinin böyük ustadı

*Dövlət başçısının Sərəncamı ilə Kamil Əliyevin anadan olmasının 100 illiyi qeyd olunacaq*



**Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Əliyevin anadan olmasının 100 illiyi tamam olur. Böyük sənətkarın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan xalçaçılığı və dekorativ-tətbiqi sənəti ənənələrinin qorunub saxlanılmasında və yeni inkişaf mərhələsinə yüksəldilməsində görkəmli xalçaçı-rəssam Kamil Əliyevin təqdirəlayiq xidmətləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla onun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.**

Bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmiş Kamil Əliyev milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Bu il 100 illik yubileyini qeyd edəcəyimiz sənətkarın Azərbaycan rəssamlıq sənətində, xüsusilə də, xalçaçılıqda məxsusi yeri var. 1921-ci ildə Oğuz yurdu Qərbi Azərbaycanda, İrəvan xanlığının mərkəzi İrəvan şəhərində anadan olan sənətkar uşaq yaşlarından bu sənətə meyil göstərir və bunun nəticəsi olaraq, Bakı Rəssamlıq Məktəbində, tanınmış rəssam Əzim Əzimzadədən dərs alır. O, 3 il burada dekorasiya şöbəsində oxuyur və müəllimlərinin məsləhəti ilə "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi işləməyə başlayır. Kiçik yaşlarından başlayaraq, onu təqib edən uğurlar peşəkar sənətkar olaraq yetişməsinə təsirini göstərir. Həyat və sənət yolu müxtəlif məqamlardan keçən sənətkarın bu illər yaradıcılıq dünyasına ştrixlər əlavə edir. Belə ki, Kamil Əliyev Böyük Vətən müharibəsində iştirak etmiş, Vətənə 22 orden və medalla qəhrəman kimi dönmüşdür.

Kamil Əliyev Bakı Bədii Rəssamlıq Fondunda çalışarkən fil sümüyündən, qızıldan, gümüşdən onlarla orijinal əntiq əşyanın, gümüş dolça, çaydan, armudu stəkan dəstlərinin bədii tərtibatçısı, rəssam müəllifi kimi özünü təsdiqləmişdir. Bununla da, bədii sənət üzrə fəxri fərmanın da, respublikanın tətbiqi incəsənət ustası adının da ilk sahibi olmuşdur. Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışları, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır. Qeyd etdiyimiz kimi, Kamil Əliyev milli mənliyimizi təmsil edən bu sahəyə hələ gənc yaşlarından gəlmişdir. O, 1930-cu illərdə Bakı Rəssamlıq Məktəbində təhsil alarkən "Azərxalça" birliyində Lətif Kərimov, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və başqa görkəmli sənət adamları ilə birlikdə bacarıqlı ornamental rəssam kimi çalışmışdır.

### PORTRET-XALÇALARI NÜMUNƏLƏRİNİN MÜƏLLİFİ

İkinci Dünya müharibəsinin iştirakçısı Kamil Əliyev 1946-cı ildə ordudan qayıtdıqdan sonra da öz sevimli peşəsini davam etdirir. Bir müddət o, Respublika Bədii Fonduna rəhbərlik edir, sonralar Bakı Zərgərlik Fabrikində direktor vəzifəsində çalışır. Həmin illərdə o, yalnız xalı, parça kimi toxuma mallarında yox, həmçinin, qızıl, gümüş və digər materiallarda da özünün mahir bədii tərtibatçı, ornamental rəssam kimi məharətini nümayiş etdirir. 1950-ci illərdən etibarən, Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutur. Bu illərdə sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaradır. O, portret xalçalarının bir silsiləsini Azərbaycan ədəbiyyatının korifeyləri olan Nizamiyə, Füzuliyə, Nəsimiyə həsr etməklə, xalqımızın poetik irsinə olan məhəbbətini büruzə vermişdir. Dünyada portret-xalçaların ən yaxşı nümunələrini Kamil Əliyev yaratmışdır. Bu sahədə ilk işi "Füzuli" xalçası olmuşdur. Kamil Əliyev ornamentdən istifadə edərək, şair və mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir. Xalının uğuru rəssamı o qədər ruhlandırır ki, o, bir müddət keçəndən sonra, İmadəddin Nəsimi və Nizami Gəncəviyə həsr edilmiş xalıları da yaradır. Rəssam bu dahi şairlərimizin hər birinin yaradıcılığına və dünyagörüşünə xas olan cəhətləri xalça sənətinin ifadə vasitələri ilə açmağa səy göstərmiş və məqsədinə nail olmuşdur.

### "BU, SÜLEYMAN DƏMİRƏLDİR, ONDA BƏS MƏN KİMƏM?"

Kamil Əliyev sənətinin gücünü göstərən digər nümunələrdən biri Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin portreti toxunmuş xalçadır. O, xalçaçı-rəssamın bu işini görərkən heyrətini gizlədə bilməyərək demişdi:"Bu, Süleyman Dəmirəldir, onda bəs mən kiməm?" Kamil Əliyev istifadə etdiyi bütün rəngləri topladığı bitki və ağaclardan özü alar, ipləri də özü boyayardı. Kamil Əliyevin türk xalqının böyük oğlu Atatürkə həsr etdiyi portret-xalısı tam başqa ovqatlı bədii üsluba malikdir. Bu portret-xalı Kamil Əliyevin ən böyük sənət uğurlarından sayılır. Turqut Özal, Süleyman Dəmirəl, eləcə də, neçə-neçə başqa dövlət, elm və mədəniyyət xadimləri bu xalçanı çox yüksək qiymətləndirib, Kamil Əliyev sənətinə böyük hörmətlərini, ehtiramlarını bildirmişlər.

### "ONUN ƏSƏRLƏRİ AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTİNDƏ, RƏSSAMLIQ MƏKTƏBİNDƏ DAİM YAŞAYACAQLAR VƏ ÇOX GÖRKƏMLİ ƏSƏRLƏR KİMİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ XƏZİNƏSİNDƏ ÖZ YERLƏRİNİ TUTACAQLAR"

Ömrünü-gününü xalqına həsr etmiş, öz xalqının taleyində əbədi iz qoymuş Böyük Dövlət Xadimi, Qüdrətli Şəxsiyyət Heydər Əliyevin Kamil Əliyev tərəfindən 1999-cu ildə yaradılmış yüksək bədii xüsusiyyətlər kəsb edən portreti də öz mükəmməlliyi ilə hər zaman seçilib. Kamil Əliyev Ulu Öndər Heydər Əliyevin ölkənin Ali Baş Komandanı kimi general libasında portret xalçasını yaratmışdır. Bu portret ictimaiyyət arasında böyük rəğbətlə qarşılanmışdır. Ulu Öndər Heydər Əliyevin portreti Onun 75 illiyinə hədiyyə idi. Ümummilli Liderimiz Heydər Əliyev portreti toxunmuş xalçaya baxarkən susmuş, əlini ilmələrə sürtərək demişdi ki, Kamil, sənin xalçaların dil açıb danışır, insanı söhbətə çağırır. Kamil Əliyevin yaradıcılıq irsini diqqətə çəkən Ulu Öndər Heydər Əliyev belə demişdir: "Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaqlar və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqlar".

Kamil Əliyev incəsənətimizi yüksəkliklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir. Rəssamın əsərləri Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və başqa şəhərlərin nüfuzlu muzey və qalereyalarında nümayiş etdirilərək, tamaşaçıların hüsn-rəğbətini qazanmışdır. Kamil Əliyevin böyük və zəngin yaradıcı əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, "Xalq rəssamı" adına və ölkənin ən yüksək mükafatı olan "İstiqlal" ordeninə layiq görülmüşdür.

*Zümrüd BAYRAMOVA*

# "Müstəqillik Günü" və "Müstəqilliyin Bərpası Günü"nün qeyd olunması dövrün zəruri addımlarındandır"



**"Bir əsrdə Azərbaycanın dövlət müstəqilliyinin həm elan olunması, həm də bərpa edilməsi əlamətdar hadisələrdir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan edərək, çoxəsrlik dövlətçilik ənənələrini davam etdirib. Xalqımız 1991-ci il oktyabrın 18-də isə müstəqilliyinin bərpasını qeyd edib". Bu fikirləri SƏS qəzetinə açıqlamasında YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Həmid Pənahov deyib.**

Rayon təşkilatının sədri bildirib ki, 1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edilib: "Həmin Aktın ikinci maddəsində bildirilir ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Varis o deməkdir ki, biz yeni müstəqil olmuruq".

Həmid Pənahov onu da vurğulayıb ki, "Müstəqillik Günü haqqında" qanun layihəsi ətrafında aparılan müzakirələr onu deməyə əsas verir ki, bu, dövrün zəruri addımlarındandır: "Çünki 44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfər, Azərbaycanın regionda formalaşdırdığı yeni reallıqlar həmin dəyişiklikləri zəruri edən əsas amillərdəndir. Və qanun layihəsinə əsasən, mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin isə Müstəqilliyin Bərpası Günü elan edilməsi xalqımızın tarixində baş verən mühüm siyasi hadisələrə düzgün, obyektiv qiymət verilməsini təsdiq edən uğurlu addımdır. Qanun layihəsində qeyd edilir ki, 2021-ci il oktyabrın 18-də Azarbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan, dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kasb edir. Çünki dövlət müstəqilliyi hər bir xalqın tarixində əldə edə bildiyi ən yüksək nailiyyətdir. Tarixi proseslərin gedişi elə gətirib ki, biz bir əsrdə iki dəfə müstəqil dövlət qurmaq imkanına sahib olmuşuq. Biz dövlət müstəqilliyini əldə etmək, qorumaq və möhkəmləndirmək üçün mübarizə aparmış, şəhidlər vermiş bir xalqıq. Ona görə də müstəqillik bizim üçün bütün digər anlayışlardan daha dəyərli, daha qiymətlidir. Bu baxımdan qanun layihəsində 28 may tarixinin Müstəqillik Günü, 18 oktyabr tarixinin isə dövlət müstəqilliyinin bərpa edilməsi günü kimi təsbit edilməsi hüquqi baxımdan tamamilə doğrudur və bu yanaşma tarixi gerçəkliyi özündə əks etdirir. Bu qanun layihəsini qəbul etməklə müstəqillik tariximizə qanunvericilik səviyyəsində bir sistemlilik gətirilir, Azərbaycanın son 103 ildəki müstəqillik tarixi ardıcıl və mərhələli şəkildə qeyd olunur. Bir sözlə, bu qanun layihəsi biz xalq olaraq ilk dəfədir ki, dövlət müstəqilliyimizin bərpasını, yəni 30 illik yubileyini fərqli formada, ərazi bütövlüyünü bərpa edən, qaməti düz və qəhrəman xalq kimi qeyd edirik".

Rayon təşkilatının sədri qeyd edib ki, 1991-ci ildə yenidən müstəqilliyi əldə etmək çox çətinliklə başa gəldi və həmin ərəfədə 18 oktyabr təkrarən "Müstəqillik Günü" kimi qeyd edilməyə başlanıb: "Lakin faktiki olaraq 18 oktyabr "Müstəqilliyin Bərpası Günüdür" və bu baxımdan da sözügedən dəyişiklik 44 günlük Vətən Müharibəsindən sonra yeni yaranmış reallıqlardan ortaya çıxan bir zərurətdir. Biz bu gün bu dəyişiklikləri etməklə həm tarixi proseslərə düzgün qiymət vermiş oluruq, həm prosesləri öz adı ilə çağıra bilir, həmçinin də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğumuzu bu dəyişikliklə sübut etmiş oluruq".

N.Pənahov vurğulayıb ki, bu qanun layihəsi bu, dövrün zəruri addımlarındandır. Bir sözlə, qəbul olunan qərara əsasən 28 May Müstəqillik Günü, 18 Oktyabr isə Müstəqilliyin Bərpası Günü kimi qeyd olunacaq.

*RƏFİQƏ HÜSEYNOVA*

## ŞOK İDDİA:

# Rusiya Ermənistanı tərk edir?

**Əldə etdiyimiz məlumata görə, Ararat (Vedi) rayonunda yaxın aylarda təxminən 400-600 nəfərdən ibarət Fransız hərbi kontingenti yerləşdiriləcək.**

**SİA xəbər verir ki, bu barədə məlumatlar erməni sosial şəbəkələrində müzakirəyə çıxarılıb və böyük rezonans doğurub.**



Vedi rayonu çox mühüm strateji əhəmiyyətə malikdir və Türkiyə və Naxçıvanla sərhədə yaxın yerləşir. Həmçinin Türkiyə və Ermənistan arasındakı dəhlizə yaxın bir məsafədədir. Ermənistandakı Rusiya kontingentinə gəlincə əldə olunan məlumatlara görə, "102 -ci" hərbi bazada tezliklə ixtisarlar başlayacaq. Məlumata görə, Suriya və Kalininqradda hərbi bazaların və kontingentin sayı genişləndirilir.

Çoxları başa düşür ki, Rusiya Ermənistanı elə-belə tərk etməyəcək. Bu həqiqətən də belədir. Lakin Fransa bunun qarşılığında Cənubi Qafqazdakı mövqeyini gücləndirmək üçün, Mərkəzi Afrika Respublikasında güzəştə getməyə hazırdır.

# Xalqın birliyi mənfur qüvvələrin məkrli planlarının həyata keçməsinə imkan vermədi

## 15-16 oktyabr hadisələri bir daha bunu sübut etdi ki...

**2003-cü il 15-16 oktyabr hadisələri...Həmin gün Azərbaycan tarixi nə yaşadı? İtirilənlər, qazanılanlar... Bu 18 ildə nə dəyişdi? 18 il sonra, 18 il əvvəlki tarixə nəzər salanda ümumi mənzərədə nələr var?**

18 il öncə o vaxtkı prezidentliyə namizəd, Müsavat partiyasının keçmiş başqanı İsa Qəmbərin ətrafında olanlar məğlubiyyətlə barışmayaraq küçələrə çıxmışdı. Dağıdıcı qüvvələrin məqsədi ölkədə qarşıdurma yaratmaq, etiraz aksiyaları ilə sabitliyi pozmaq idi.

### Müsavat eks-başqanının 2003-cü il "xatirələrindən" doğan faktlar

Bu ərəfələrdə Müsavat partiyasının sabiq başqanı, 2003-cü ildə yaradılmış "Bizim Azərbaycan" seçki blokunun rəhbəri İsa Qəmbər həmin ilin 15-16 oktyabr hadisələri ilə bağlı müəyyən vacib məsələlərlə bağlı etiraflar edib. İ.Qəmbər etiraf edib ki, oktyabrın 16-na təyin edilmiş icazəsiz mitinqə qarşı "hakimiyyətin hərbi-texniki cəhətdən hazırlıqlı" olduğundan xəbərləri olub (?!-R.H.). Yəni İsa Qəmbər yaxşı bilirmiş ki, icazəsiz kütləvi aksiya keçirərsə, partiyanın balkonundan aşağıya toplaşmış gözləri qızmış cinayətkarlara armaturlar, dəyənəklər ötürərsə, qarşıdurma yaratmaq çağırışları edərsə, dövlət bu kimi qanunsuz əməllərin qarşısını alacaq. Bu kimi halı bilə-bilə, hadisələrin sonrakı gedişatını proqnoz etməyərək, İ.Qəmbər və radikal seçki blokunun digər təmsilçilərinin təşəbbüsü ilə "Azadlıq" meydanında icazəsiz aksiya keçirildi. Nəticədə, arzuolunmaz məsələlər baş verdi.

Onda belə bir sual yaranır - əgər sən bütün baş verəcəklərin nəticəsindən hali idinsə, ya da proqnoz etmək gücündəydinsə, niyə həmin hadisələrin qarşısını almaq yerinə, ölkədaxili vəziyyətin qızışdırılaraq çərçivədən çıxmasına çalışdın? Bu sualın cavabı çox asandır. Bu tapşırığı İ.Qəmbərə o zamankı Norveç səfiri Steynar Gill və daha bir neçə Qərb ağaları vermişdi. Təbii ki, İ.Qəmbər də yalnız öz mənfəətini güdən biri ağalarının əmrləri qarşısında müntəzir dayandı. Qan da töküldü, şəhərə də ciddi ziyan dəydi.15-16 oktyabr hadisələri Azərbaycanın siyasi tarixində birmənalı qəbul edilmir. Çünki müxalifət həmin günü ictimaiyyətin demokratiya uğrunda mətn mübarizəsi, hakimiyyət isə radikalların vandalist hərəkətləri kimi qəbul edir. Həmin hadisələrin növbəti faktları üzə çıxdıqca, bir daha bəlli olur ki, bu cür fərdlərin hakimiyyətə gəlmək şansları yoxdur və bundan sonra da olmayacaq. Çünki bənzər ittihamlarla, mövcud və dəyişilməz "tərbiyələri" ilə onlardan bundan artığını gözləməyə də dəyməz.

Beləliklə, dağıdıcı müxalifət Azərbaycanda nəyi görmək istəmirsə, onu ifadə etməyə çalışır. Elə buna görə də hər şeyə qara yaxır, məkrli niyyətlərindən əl çəkmirlər. Azərbaycan xalqı isə dağıdıcı müxalifəti çoxdan arxivə atıb.

### Düzgün siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı Qalib ölkəyə çevirdi

Bəli, bu, reallıqdır. Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən Azərbaycan bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu. Prezidentin ilk vədi bu oldu: ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyona yaxın iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi. Ölkə Prezidenti deyirdi: "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq".

Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu. Prezident 2018-ci il aprelin 18-də andiçmə mərasimindəki nitqində islahatların yeni mərhələsinin anonsunu verdi: "Növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaq".

Fransız sosioloji tədqiqat şirkəti Azərbaycan respondentləri arasında sorğu keçirərkən, insanlara belə bir sual ünvanladı: Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son bir ildə apardığı islahatları necə qiymətləndirirsiniz? Sorğuda iştirak edən hər 100 nəfərdən 90,5-i sualı müsbət cavablandırıb. Bu qiymətləndirmə üçün yetərincə arqument var. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə iqtisadiyyat 3,2 dəfədən çox artıb, qeyri-neft sektorunun ixracında 4 dəfədən çox artım baş verib. Valyuta ehtiyatlarımız 24 dəfə artaraq 44 milyard dolları ötüb. Ölkəmizə 230 milyard dollardan çox sərmayə yatırılıb. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyə görə 35-ci yerə layiq görüb. Biz inkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf göstəricisinə görə isə üçüncü yerə yüksəlmişik. Budur, xalqın seçdiyi Prezidentin uğurları, tarixi nailiyyətləri!!! Eyni zamanda, sənaye və aqrar sahə modernləşdirilir, şəhər və rayonlarda sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları yaradılır, ölkəmizə ən müasir texnologiyalar gətirilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması ilə Azərbaycan özünü dünyada tranzit ölkə kimi təsdiqlədi. Azərbaycanın inkişaf edən güclü dövlət olduğunu və 44 günlük hərbi əməliyyatlar nəticəsində regionda yeni reallıqlar yaratdı. Bir sözlə, Azərbaycan nəinki Avropada, bütün dünyada öz sözü olan ölkə kimi qəbul edilir. Bütün bunlar, sözün əsl mənasında, tarixi hadisələrdir. Həmin layihələr bundan sonra onilliklər ərzində Azərbaycana həm siyasi, həm də iqtisadi və maliyyə dividentləri gətirəcək. 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görüldü.



Prezident İlham Əliyev Azərbaycana Prezident kimi rəhbərlik etdiyi 18 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyevin uzaq görən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 18 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı. Böyük Qələbə uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsidir. Düzgün siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı Qalib ölkəyə çevirdi. Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir.

**RƏFİQƏ HÜSEYNOVA**

# Cəbhənin birində savaş bitsə də, digərində davam edir

TƏHLİL

Covid-19 vurusu, yaxud koronavirus termini artıq iki ilə yaxındır ki, hər yerdə, özü də ən çox istifadə edilir və bu virusdan, bu xəstəlikdən qorunmağın vacibliyi dönə-dönə vurğulanır. Bütün dünyanı bürüyən bu virusun, dünya ictimaiyyətinin yaşam tərzinə əhəmiyyətli dərəcədə təsir edən, milyonlarla insanın həyatını itirməsinə səbəb olan bu xəstəliyin miqyası nəzərə alınaraq Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya adlandırılması heç də təsadüfi deyil. Bu qərar əslində, böyük bir həyəcan təbilinin çalınması deməkdir və harada olmasından asılı olmayaraq insanlar bu virusa, bu xəstəliyə dırnaqarası baxmamalıdırlar, bununla mübarizəyə qatılmalı, qarşıya qoyulan tələblərə əməl etməlidirlər.

Bu virusa yoluxan insanlar bir zamanlar səhlənkarlıq, saymazlıq etsələr də, mühafizə olunmasalar da, tələblərə əməl etməsələr də artıq bu xəstəliyə yoluxduqdan sonra hansı halda olduqlarının, həyati təhlükə qarşısında qaldıqlarının fərqində olur, yaşamq uğrunda mübarizə aparırlar. Hər dəfə karantin rejimi qaydalarının yumşaldılması, qadağaların azaldılması, nəticədə də bunu düzgün qiymətləndirməyən insanların, bir çox vətəndaşların məsuliyyətsiz davranışları onların xəstəliyə yoluxmalarına, həyati təhlükə ilə qarşılaşmalarına, bəzilərinin hətta həyatını itirməsinə də gətirib çıxardı. Halbuki, daha diqqətli, məsuliyyətli davranmaqla bu mənzərəni dəyişmək də olardı. Koronavirusa yoluxanların özlərinn də dediklərinə görə, vaxtında peyvənd olunmadıqlarına görə peşiman olurlar, təəssüf edirlər. Onlar hansısa xəstəxanada müalicə almaqdansa, əvvəlcədən gündəlik həyatlarında daha diqqətli və məsuliyyətli olmalı olduqları qənaətindədirlər. Əlbəttə ki, xəstəlikdən əziyyət çəkənlər bu hala düşmək istəməzdilər və məhz buna görə də hefslənirlər. Deməli, bu dəhşətli virusdan qorunmaq məqsədi ilə hamı mütləq qaydada peyvənd olunmalı və tələb olunan qaydalara əməl etməklə, gündəlik həyatda daha ehtiyatlı davranmalıdır. Bu xəstəliyin, bu virusun tez bir zamanda yox olması, keçmişdə qalması üçün hamımız məsuliyyətli olmalıyıq.

İtgilərimizin mümkün qədər az olması üçün dövlətimiz bir çox dünya ölkələrinidən daha tez reaksiya verdi bu virusa qarşı və qabaqlayıcı tədbirlərə demək olar ki, hamıdan əvvəl əl atıldı. Yeni xəstəxanaların istifadəyə verilməsi, modul tipli xəstəxanaların qurulması, karantin rejimi, təcrid olunmalar, bu zaman aztəminatlılara maddi yardımların verilməsi və sair sosial addımlar həmin tədbirlər silsiləsindəndir və məqsəd yoluxma səviyyəsini və itgiləri minimuma endirmək idi. Əlbəttə ki, bu məqsədə də nail olundu və bir çox qabaqcıl dünya ölkələri ilə müqaisədə Azərbaycan ən az itgilər verdi. Ölkəmiz bu istiqamətdə qlobal miqyasda da öz töhvələrini verdi, xəstəliklə mübarizə üçün yardımlar ayrıldı, şəxsən ölkə rəhbərinin təşəbbüsü ilə qlobal müzakirələr təşkil olundu və beynəlxalq təşkilatların bu istiqamətdə Azərbaycanın fəaliyyətini qənaətbəxş, uğurlu hesab etməsi də təsadüfi deyil. Bir sözlə, bütün addımlar, səylər itgilərin mümkün qədər az olması naminə idi.

Hal-hazırda müəyyən yumşalmalar olsa da, müəyyən qadağalar ləğv olunsa da bu, virus təhlükəsinin tamamilə sovuşduğu anlamına gəlmir. Əbəs yerə deyil ki, qapalı məkanlarda insanların qoruyucu vasitələrdən istifadə edib-etməsinə nəzarət edilir və hətta tələblərə cavab verməyənlərə qarşı inzibati cəza tədbirləri, cərimələr də tətbiq edilir. Çünki, tibbi maskaların, qoruyucu vasitələrin istifadəsi, sosial məsafənin saxlanılması kimi tələblərə cavab verməməklə, yoluxma sayını, bununla da itgiləri artırmış olarıq və bunun qarşısı da dövlət tərəfindən, hüquq-mühafizə orqanları tərəfindən məharətlə alınır. Amma, vətəndaşlar özləri də öz məsuliyyətini dərk etməli, bilməlidirlər ki, məsuliyyətsiz davranış arzuolunmaz nəticələrə, yoluxmaların, itgilərin sayının artmasına gətirib çıxara bilər. İlk növbədə bilmək lazımdır ki, söhbət insan həyatından gedir və insanların həyatdan məhrum olmamaması üçün çalışmaq, qaydalara əməl etmək, qorunmaq lazımdır. Bu gün məhz qapalı məkanlarda tələblərə riayət olunması ilə bağlı vətəndaşlara olan tələblər bu məqsədlədir.

Xatırladığımız kimi, hələ bir il bundan öncə 44 günlük vətən müharibəsi dövründə də vətəndaşlarımızın istər Covid-19 virusundan, istərsə də döyüşlər zamanı hərbçilərimizin ən minimum həddə itgisi ilə əlaqədar tədbirlər görülürdü. Azərbaycan dövləti, Azərbaycan Ordusu, xalqımız cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə düz bir il bundan əvvəl qələbələrə imza atır, işğal altında olan torpaqlarımızı işğaldan azad edir, bir sözlə, şanlı tarix yazırdı və tarixin bu şanlı səhifələri yazılarkən vətənin ən ləyaqətli, ən şərəfli oğulları canlarını qurban verir, bununla da şəhidlik zirvəsinə ucalırdı, hansıki, bu şəhidlərin xatirəsi əbədi olaraq Azərbaycan xalqı tərəfindən böyük hörmət və ehtiramla anılıb, anılır, daim anılacaq da. Bununla belə əsgər və zabitlərimizin həyatlarını itirməməsi üçün ən optimal hərbi taktika seçilir, ən səmərəli hərbi əməliyyatlar aparılırdı. Hər bir halda şəhidlik zirvəsinə ucalan qəhrəman, ləyaqətli hərbçilərimiz, əsgər və zabitlərimiz, Azərbaycan xalqının övladlarıdır və onların şəhidlik məqamına ucalmalarına görə fəxarət hissi ilə yanaşı, bu məğrur, ləyaqətli, şərəfli vətən oğullarının həyatlarını itirmələrinə görə təəssüf hissi də var. Vətən torpaqlarını düşmən tapdağından, işəğaldan azad edən oğullarının şəhidlik zirvəsinə ucalmalarına görə qürur hissi keçirən anaların övlad itgisi ilə qarşılaşdığı həqiqət də var və bu bir reallıqdır. "Torpaq, əgər uğrunda ölən varsa vətəndir", bu doğrudur, amma 44 günlük müharibə dövründə itgilərin minimum həddə olması üçün çox çalışıldı və bu barədə Ali Baş Komandanımız da dəfələrlə bəyan edib.

Məsələ burasındadır ki, Covid-19 virusu səbəbindən həyatını itirənlərin sayı Vətən müharibəsində cəbhədə həyatını itirənləri sayından indi iki dəfə artıqdır. Bu günkü statistikaya əsasən koronavirus xəstəliyi səbəbindən həyatını itirənlərin sayı 6720 nəfərdir ki, bu da 44 günlük savaş zamanı şəhid olan 3 minə yaxın hərbçilərimizin sayından həqiqətən də iki dəfədən də çoxdur. Maraqlıdır, 44 günlük savaş zamanı insanların həyatını itirməsinə görə narahat olurduq, amma bundan daha artıq sayda vətəndaşlarımızın itgisinə səbəb olan xəstəliyə görə narahat olmuruq, yaxud da ən azından qoruyucu vasitələrə, tədbirlərə dırnaqarası yanaşırıq?

Bəli, 44 günlük savaş bitdi, özü də qələbəmizlə, torpaqlarımızın işğaldan azad olunması ilə, Azərbaycanın zəfəri ilə. Bu cəbhədə bir il bundan əvvəl itgilərimiz oldusa da indi artıq savaş bitdiyindən bu cəbhədə artıq itgilər vermirik. Amma, nəzərə almaq lazımdır ki, koronavirus cəbhəsində hələ də savaş bitməyib və həyatını itirənlərin sayı durmadan, günbəgün artır. Nə vaxt itgilərin bitəcəyi də məlum deyil. Çünki, düşmən gözəgörünməzdir və bu dəfə də erməni kimi bir virus qədər təhlükəli virusla mübarizə aparırıq. Bir sözlə, cəbhənin birində savaş bitsə də digərində hələ davam edir. Əslində, bu gün insanların həyatını itirmələrinə görə daha çox narahat olmalıyıq. İnsanların mütləq əksəriyyətinin peyvənd olunmasına çalışmalıyıq, bunun üçün əlimizdən gələni əsirgəməməliyik, qadağalara, tələblərə riayət etməli, son dərəcə qorunmalı, digərlərinin də qorunmasını təmin etməliyik. Bunun üçün hər bir vətəndaşımız əlindən gələni əsirgəməməli, hər kəs çalışmalı, məsuliyyət hissini unutmamalıdır. Nəzərə almaq lazımdır ki, Vətən müharibəsində həyatını itirənlər şəhidlik zirvəsinə ucalırdılar və buna görə fəxarət hissi keçiririk, amma koronavirus xəstəliyi səbəbindən ölən vətəndaşlara görə yalnız təəssüf hissi keçirə bilərik.

**İNAM**

ANALİTİKA+AKTUAL

# İranın absurd iddiaları şkalanı keçir: fakt yox, sübut yox!

## Bakıya qarşı ittihamlar sürərkən, Tehran özü-öz əməlləri barədə düşünməli və nəticələr hasil etməlidir

**Son vaxtlar İran tərəfindən Azərbaycanın ünvanına qarşı kifayət qədər əsassız ittihamlar irəli sürüb və istər-istəməz belə bir sual yaranır ki, İran bu ittihamlarını necə, hansı üsulla əsaslandırmağa çalşacaq, ya da sübuta yetirəcək? Onu da qeyd edək ki, Tehran həmin ittihamlarını əsaslandırmağa məcburdur, çünki Bakı onun ünvanına yönələn həmin ittihamları rədd edir, üstəlik, sübuta yetirilməsini istəyir. Təbii ki, ortada heç bir sübut-filan yoxdur və ola da bilməz!**





### İranın baş prokurorunun Ermənistandan Azərbaycanın ərazisində ”terrorçu” axtarışına çıxması qaranlıq otaqda qara pişik axtarışına bənzəyir








Diqqət çəkən məqamlardan biri də budur ki, bir müddət işğaldan azad olunmuş ərazilərimizdə guya İsrail bazalarının olduğunu iddia edən iranlı hərbi-siyasi dairələri indi də vallarının üzünü çevirməklə, daha dəqiqi, taktikalarını dəyişməklə ”beynəlxalq terrorçular” adı altında mənasız hay-küylər qaldırırlar. Bir sözlə, absurd iddialar şkalanı keçir.

Elə oktyabrın 13-də, İrəvandakı həmkarı ilə görüş keçirən İran İslam Respublikasının baş prokuroru Məhəmməd Cəfər Montəzir Bakının ünvanına məntiqsiz fikirlər səsləndirib. ”Ermənistan və İran təsdiq ediblər ki, bizim sərhədlərimizdə qeydə alınan terrorçular heç bir halda qəbulolunmazdırlar. Biz qonşu ölkələrlə mehriban qonşuluq münasibətləri dəstəkləyir və ümid edirik ki, onlar İranın bu mövqeyini məsələ gərginləşmədən qəbul edəcəklər. Terrorçular dərhal yox olmalıdırlar. Biz çevik addımlar tətbiq edə bilərik, lakin ümid edirəm ki, qonşu ölkələrin özləri bu məsələnin həlli ilə məşğul olacaqlar”, Tehrandan olan rəsmi bildirib.

Gördüyümüz kimi, get-gedə həddini aşmağa başlayan İranın baş prokurorunun bu dəfə düşmən ölkəyə gedərək oradan Azərbaycanın ərazisində ”terrorçu” axtarışına çıxması, əslində, qaranlıq otaqda qara pişik axtarışına daha çox bənzəyir. Ancaq bu mənasız cəhdlər heç də Azərbaycanın nüfuzuna, regional təsirinə zərər vermir, zərəri məhz Tehranın bəlli hərbi-siyasi dairələri, bir də ki, teokratik dairələri çəkəcəklər və buna, sadəcə, qısa zaman lazımdır...

### Biz hələ 44 günlük müharibə dövründə Tehranın gizli yollarla Suriyadan, İraqdan PKK terrorçularını öz ərazilərindən keçmələrinə şərait yaratması, silah-sursat göndərilməsi faktlarını demirik!

Terrorçularla bağlı ittihamlara gəlincə, əslində bu, İran rəhbərliyinin köhnə mifoloji təsəvvürləridir. Artıq çoxdan məlumdur ki, İİR rəsmiləri regional prosesləri yalnız özlərinə sərf edən ”baxışları”, ”düşüncələri” prizmasından qiymətləndirməyə alışıblar. Belə ki, Azərbaycanda birmənalı olaraq terrorçular yoxdur, olmayıb və olmayacaq.

Çünki Azərbaycanın özü uzun illər təcavüzkar Ermənistanın terrorçuluq siyasətinə məruz qalaraq torpaqları 30 il işğal altında olub. Məhz İranın dəstəyi ilə bu torpaqlardan narkotranzit kimi istifadə edilib, habelə Qarabağda PKK və s. terror təşkilatlarının düşərgələri fəaliyyət göstərib.

Biz hələ 44 günlük müharibə dövründə Tehranın gizli yollarla Suriyadan, İraqdan PKK terrorçularını öz ərazilərindən keçmələrinə şərait yaratmasını, silah-sursat göndərilməsi faktlarını demirik!

### Ağaye Montəzir sərsəm ittihamını səsləndirərkən unutmamalıdır ki, Azərbaycan Ermənistan deyil!

Başqa tərəfdən, Azərbaycan beynəlxalq terrorla mübarizədə daim ön sıralarda dayanıb, vaxtilə Suriyada, İraqda İŞİD və s. terror təşkilatları tərkibində döyüşmüş vətəndaşlarının aşkar edilərək saxlanılmaları və qanun qarşısında cavab verməleri istiqamətində davamlı, uğurlu fəaliyyətini ortaya qoyub. Bu baxımdan, Tehranın rəsmi mənsubları orda-burda ağlasığmaz ittihamlarla çıxış etmələri yerinə, bu faktları dilə gətirsinlər və əslində, özlərini rüsvay etməsinlər.

Yeri gəlmişkən, ağaye Montəzir sərsəm ittihamını səsləndirərkən unutmamalıdır ki, Azərbaycan Ermənistan deyil və sərhədlərinin hər hansı xarici qüvvələr tərəfindən qorunmasına, ümumiyyətlə, ehtiyac duymur. O cümlədən, bu gün Tehran unutmamalıdır ki, hələ 1984-cü ilin 19 yanvar tarixindən ABŞ-ın dövlət departamenti tərəfindən terrorçulara sponsorluq edən dövlətlər sırasında yer tutur.

### Bu həmin İrandır ki, BMT-nin Təhlükəsizlik Şurasının 1701 № -li qətnaməsində vurğulanmış qadağasına baxmayaraq, Hizbullahın silahlanmasında canfəşanlıq göstərir

Bir çox hesabatlara görə, İran bu gün də terrorçulara dəstək fəaliyyətini aktivliklə icra edir. Tehran Yaxın Şərqdə, Mərkəzi Asiyada mövcud olan terror qruplaşmalarına maliyyə, texniki təchizat cəhətindən dəstək göstərir. Əbəs deyil ki, İslam inqilabı keşikçiləri (SEPAH) korpusu terrorçulara dəstək mexanizmində əsas orqanlardan biri kimi göstərilir. Eləcə də ABŞ kəşfiyyatının gəldiyi qənaətinə görə İran hələ 2012-ci ildə Hindistanda, Tailandda, Gürcüstanda və Keniyada terror aksiyalarının keçirilməsində şübhəli tərəf kimi bilinir.

Və bu həmin İrandır ki, BMT-nin Təhlükəsizlik Şurasının 1701 № -li qətnaməsində vurğulanmış qadağasına baxmayaraq, Hizbullahın silahlanmasında canfəşanlıq göstərir. Həmçinin, ABŞ-ın Dövlət Departamenti İranın Yəməndə terrorçulara dəstək göstərməsi ilə yanaşı, həm də Əl-Qaidə ilə gizli razılaşmalar əldə etdiyini müəyyənləşdirib. Bütün bunlar isə açıq mənbələrdə mövcud olan danılmaz faktlardır. Beləliklə, Bakıya qarşı ittihamlar sürərkən, Tehran özü-öz əməlləri barədə düşünməli və nəticələr hasil etməlidir.

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ

# Əli İnsanovun "HƏP"i - hara getdi ?

*İsfəndiyar Vahabzadə qapını çöldən çırpdı və partiyadaşlarının şəxsiyyətlərini aşağıladı*



Həbsdən azad olunar-olunmaz özünə "tərəfdarlar" taparaq dərhal "Haqq və Ədalət Partiyası" ("HƏP") yaradan, bu vasitə ilə guya ölkənin siyasi gündəminə rəng qatacağınmı düşünən sabiq səhiyyə naziri Əli İnsanov meydanda tək buraxılıb. Belə desək, onun vaxtilə "tərəfdarlarına" verdiyi vədləri puç olduqdan sonra gözünü açıb-görüb ki, bir "partiyasıdır", bir də özü - daha ətrafında kimsə yoxdur. SİA-ya İnsanova yaxın olmuş və sonradan ondan ayrılmış mənbədən daxil olan məlumata görə, "HƏP"in Əli İnsanovdan sonra ikinci adamı hesab edilən İsfəndiyar Vahabzadə adıçəkilən ölü siyasi qurumun sıralarını tərk edib. Hətta bu gediş elə sərt şəkildə baş verib ki, İsfəndiyar Vahabzadə dolayısı ilə başda İnsanov olmaqla onun ətrafındakı beş-üç nəfəri təhqir hədəfinə çevirib.

**<u>Vahabzadə:</u> ""Mənim atamın bir misrası sizin bütün şəxsiyyətinizdən daha böyükdür"**

Daha dəqiq desək, partiyanın toplantısı zamanı baş vermiş qalmaqaldan sonra İsfəndiyar Vahabzadə bu sözləri işlədərək qapını çöldən bağlayıb. SİTAT: "Mənim atamın (Mərhum Bəxtiyar Vahabzadəni nəzərdə tutub) bir misrası sizin bütün şəxsiyyətinizdən daha böyükdür".

Məlumata görə, "HƏP"lə faktiki olaraq yollarını ayırmış İsfəndiyar Vahabzadədən israrla xahiş olunub ki, bu faktı ictimailəşdirməsin.

"Partiya sənədlərini qeydiyyat üçün Ədliyyə nazirliyinə verib və bu səbəbdən də Əli İnsanov bütün gücü ilə çalışır ki, Vahabzadənin gedişi hələlik bəyan edilməsin. İsfəndiyar Vahabzadə "HƏP"in qeydiyyatı müraciətinə hər hansı cavab verilənə qədər susmağa razılaşıb", deyə məlumatda bildirilir.

Beləliklə, Əli İnsanovun "HƏP"i də belə getdi və çox yəqin ki, onun özü də artıq siyasi ölü olduğunu anlayaraq qınına çəkiləsi olacaq.

***R.Nurəddinoğlu***



## Bakının dərdi var BNA çarə qıla bilmir

Elçin Bayramlı

**Azərbaycan o ölkələrdəndir ki, bütün mədəni və iqtisadi potensialı, ölkə əhalisinin demək olar ki, yarısı yalnız paytaxtda cəmləşib. Ultraubanizasiya prosesinin mənfi təsirləri özünü şəhərdaxili nəqliyyatda da göstərir.**

Tramvay, elektriçka və trolleybus kimi səmərəli, ucuz, ekoloji təmiz nəqliyyat sistemlərinin ləğv edilməsi ilə Bakıda böyük problem yarandı. İndi bu boşluğu havaya tonlarla zəhərli qazlar buraxan, şəhərdə tıxaclar yaradan avtobuslar doldurur. Bir də metro, hansı ki, uzun illərdir vaqonlarında sərnişinlər bir-birinin "belində" gedir.

100 milyon xərc qoyulub yaradılan nəqliyyatın intellektual idarəetmə sistemi işləmədi və dövlətin pulu batdı. İndi dayanacaqlarda bu sistemin işləməyən monitorları həmin batırılmış pulları adama xatırladır. Kart sisteminə keçdikdən sonra da başqa problemlər yaranıb. Şəhərdəki əksər Bakıkart aparatlarında gediş haqqı yüklənmək olmur, ya aparat dolu olduğundan pulu qəbul etmir, ya da ümumiyyətlə işləmir.

Paytaxtın nəqliyyat sistemində, daha doğrusu, şəhərdaxili avtobus nəqliyyatında həyata keçirilən islahatlar öz müsbət dəyişiklikləri ilə yanaşı mənfi nəticələrini də verdi. Marşrutların sayının kəskin azaldılması, marşrut xətlərinin qısaldılması ona gətirib çıxarıb ki, artıq sərnişinlər bir yerdən digərinə getmək üçün azı 2, bəzi hallarda 3 avtobus dəyişməli olurlar. Bu da əlavə vaxt və pul itkisi yaradır. Lakin sərnişindaşıma şirkətləri daha çox sərnişini, daha az avtobusla daşıyaraq, daha çox gəlir əldə edirlər. Sərnişinlər bunun qəsdən belə təşkil edilyini düşünürlər.

Mövcud marşrutların optimal qurulmaması ciddi problemdir. Təəccüblüdür ki, metrodanmetroya marşrutlar daha çox paylanıb, metro olmayan yerlərə isə əksinə, daha az marşrut işləyir. Məsələn, şəhərin mərkəzi hissələrindən Lökbatan istiqamətində işləyən marşrutların demək olar ki, hamısı (5, 88, 125, 6, 127, 53 və s.) Bayıl zonasında 20-ci sahə dairəsi adlanan yerdən keçir, halbuki şəhərin əsas giriş-çıxışı dənizkənarı yol- Yeni Salyan şossesidir, buradan isə cəmi 1 marşrut işləyir (125) o da uzaqməsafəli qəsəbə avtobusu olduğundan yolboyu ona minmək mümkün deyil. Lökbatandan tam dolub gəlir, dəmiryol vağzalından da tam dolub ora qayıdır. Üstəlik, bu şosse boyu yaşayan və yaxın məsafəyə gedən sərnişinlərdən kimsə bu avtobusa minməyə müvəffəq olsa belə, 30 qəpik əvəzinə 40 qəpik ödəməli olur. BNA-nın "ağlına gəlmir" ki, 20-ci sahə dairəsindən keçən o qədər marşrutun birini ayırıb bu şossedən keçirsin. Misal üçün, Nərimanov metrosundan gələn 5 nömrəli avtobusu bu şosse ilə Bibiheybət məscidinə yönəldə bilər. Lakin nədənsə bundan maraqlı deyil, yəqin isteyir ki, orada yaşayan sakinlər əziyyət çəksinlər və əlavə xərcə düşsünlər. Bunun başqa izahı yoxdur.

Faktiki olaraq, marşrutların və avtobusların sayı, sxemi, intervalı tələbata uyğun deyil. Əksər marşrutlarda sərnişinlər ayaq üstə getməyə belə yer tapmırlar. Sürücülərin və sərnişinlərin əsəblərini korlayan tıxac problemi isə bitmək bilmir. Çünki sərnişindaşıma bərbad olduğundan əksəriyyət maşınla getməyə üstünlük verir. Pik saatlarda bir çox küçələr saatlarla keçilməz hala gəlir.

Avtobuslar üçün xüsusi zolaqların ayrılması vəziyyəti bir qədər dəyişsə də, problem hələ də həll edilməyib. Problemi həll etmək üçün paytaxtın şəhərdaxili sərnişin nəqliyyatında və küçələrin hərəkət sistemində əsaslı islahatlar aparılmalıdır. Ümumiyyətlə, özəl sərnişindaşıma şirkətləri ləğv edilsə, bu işlə dövlət özü məşğul olsa, yaxşı olar. Son illərin təcrübəsi də bunun vacibliyini göstərir.

TƏRS BAXIŞ+ÖZƏL

# <u>İranın Zəngəzur hay-həşiri:</u> Tehrana nə dəxli var?

**Xaricdən olan istənilən maneə bilavasitə üçtərəfli bəyanatı imzalamış ölkələrin daxili işlərinə müdaxilə kimi dəyərləndirilə bilər!**






Bu gün özünü istər Azərbaycana, istərsə də digər ölkələrə "regional güc" kimi göstərməyə cəhd edən, guya "regionda sərhədlərin dəyişməsinə dözməyəcəyini" bəyan edən rəsmi Tehran Zəngəzur dəhlizinin açılmasına mane ola bilməz - nə hüquqi, nə siyasi, nə də mənəvi cəhətdən. Belə ki, Zəngəzur dəhlizi məsələsinə yalnız üç dövlət aiddir və bu dövlətlər 9-10 noyabr üçtərəfli bəyanatını imzalayan tərəflərdirlər. O cümlədən, dəhliz İranın ərazisinə nə də onun kommunikasiyalarına toxunmur. Daha dəqiq desək, Zəngəzur dəhlizinin açılıb-açılmamasının ümumiyyətlə, İrana aidiyyatı yoxdur. Qeyd olunduğu kimi, aidiyyatı olan ölkələrin dövlət rəhbərləri bu istiqamətdə müsbət qərar veriblər. Əgər tərəflərdən biri sonradan hər hansı siyasi cığallığa əl atırsa, bu məsələnin də əlbəttə ki, İrana aidiyyatı ola bilməz. Yəni xaricdən olan istənilən maneə bilavasitə üçtərəfli bəyanatı imzalamış ölkələrin daxili işlərinə müdaxilə kimi dəyərləndirilə bilər. Məlumdur ki, İrana bu istiqamətdə hərəkət etməyə də kimsə icazə verməyib.

Lakin buna baxmayaraq, Tehrana məxsus siyasi dairələrin son vaxtlar gətirdikləri "arqumentləri" də çox gülünc görünür. "Sərhədlərin dəyişdirilməsinə dözməyəcək" İran digər tərəfdən də iddia edir ki, onun Ermənistanla olan kommunikasiya rabitəsi pozulmamalıdır (?!). Ancaq...

### Tehran Bakıya izah etsin görək, son 30 ildə regionda sərhədlərin de-fakto dəyişdiyi vaxtlarda harada idi?

Ancaq daha bir məsələ budur ki, sərhəd məsələsinə gəlincə, bu gün Tehran Bakıya izah etsin görək, son 30 ildə regionda sərhədlərin de-fakto dəyişdiyi vaxtlarda harada idi və niyə bu kimi bəyanatlar səsləndirmirdi? Yoxsa ki, bu ölkənin mühərrikində gec işədüşmə problemi yaşanır?

Və ya İrana nə qədər izah olunmalıdır ki, Zənfəzur tranziti heç də sərhədlərin dəyişməsini nəzərdə tutmur və Ermənistan həmin zolaq üzrə öz formal yurisdiksiyasını saxlayır, hansı ki, sözügedən zolaq, eyni zamanda, Rusiya Federasiyasının nəzarətinə (yurusdiksiyasına deyil) keçəcək.

İran-Ermənistan kommunikasiyalarına gəlincə (bu, Araz çayı üzərindən qaz kəməri və elektrik xətləri ötürücüsüdür) isə, nəinki həmin ərazilərin ətrafı, hətta yanı belə toxunulmaz qalır. Bunun üçün yol mühəndisliyində estakadalar və tunellər kimi mühüm ixtiralar mövcuddur. Çox yəqin ki, Tehran özünün "regional güc" olduğunu nümayiş etdirmək üçün Azərbaycanla sərhədlərdə "əzələ nümayişi" göstərərkən qeyd edilən bu ixtira vasitələri barədə məlumatsız qalıb.

### Azərbaycanın rıçağı, dəstəyi, "dobrosu" olmadan onların bu layihələrinin Gürcüstan ərazisində reallaşması mümkün görünmür

Əgər İran başbilənləri bugünün özündə belə utopiyaya bənzəyən Hindistan-Bandərabbas-Mehri-Poti layihəsinə görə narahat olursa, onda buyursun, həmin layihəsini inşa etsin. Bu məsələdə Azərbaycan İrana mane olmur və İran da öz lüzumsuz inadkarlığı ilə Azərbaycana mane olmamalıdır. Və hərbə-zorba kimi görünməyə cəhd edən Tehran siyasətçiləri daha bir faktı da birdəfəlik anlamağa məhkumdurlar ki, Azərbaycanın rıçaqı, dəstəyi, "dobrosu" olmadan onların bu layihələrinin Gürcüstan ərazisində reallaşması mümkün görünmür. Bakı etibarlı qonşusu və dostu Tbilisidən bircə dəfə xahiş edə bilər ki, öz sərhədlərini İranın bütün yük maşınlarının, eləcə də Ermənistanda istehsal edilməyən məhsulların üzünə bağlasın və əmin olsunlar ki, bağlanacaq!

### Zəngəzur dəhlizi isə mütləq olacaq!

Bax, onda İran tacirlərinin "Şimal-Cənub" layihəsinə qoyduqları investisiyaları ani şəkildə puç olacaq. Həmçinin, tehranlı siyasətbazlar onu da bilməlidirlər ki, onların yük maşınları da zaman-zaman Azərbaycanın Gürcüstan ərazisindəki strateji boru kəmərlərinin və dəmir yollarının üzərindən keçir. Heç indiyə qədər Bakının etirazlı, kəskin bəyanatları səslənibmi? Ən azından, hay-həşirlər salıb üz-gözlərini cırmaqdansa, bu faktdan ibrət dərsi götürsünlər və özlərinə bu qədər zəiyyət verməsinlər. Zəngəzur dəhlizi isə mütləq olacaq! Bu dəhlizin Bakı ilə yanaşı daha bir qarantı isə Moskvadır. Həmin Moskva ki, İranın XİN rəhbərini soyuq şəkildə qarşıladı, üstəlik eyham vurdu ki, üçtərəfli bəyanata imza atmış ölkələrin daxili işlərinə müdaxilə etməsinə yol verməyəcək.

*<u>Rövşən RƏSULOV</u>*

***P.S. Üstəlik, Moskva Tehrana xatırlatdı ki, hələ də Xəzərin hüquqi statusunu müəyyən edən konvensiyaya imza atmayıb. Bəlkə onlara heç bir dəxli olmayan Zəngəzur dəhlizi ətrafındakı hay-həşirlərini bir kənara qoyaraq bu haqda düşünsünlər?***

# Pyotr Petrovski: "Belarus Qarabağda sənaye və aqrar sektora sərmayə qoymağa hazırdır"



*Belaruslu politoloq: "Bakı həmişə Minskə dəstək olub və çətin vaxtlarda kömək əlini uzadıb"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Belaruslu politoloq, "Belaya Rus" respublika ictimai birliyinin eksperti Pyotr Petrovski "Caliber" analitik mərkəzinə müsahibəsində iki ölkə arasındakı əməkdaşlıq münasibətlərindən və Belarusun Qarabağda iqtisadi layihələrdə iştitrak potensialından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycanla Belarus arasında ikitərəfli əlaqələrin səviyyəsini necə qiymətləndirirsiniz?***

- Belarus və Azərbaycan strateji tərəfdaşdır. Bir-birinə bağlı bir iqtisadiyyat və bir-birimizə olan marağımız var. Bu, Bakı üçün yüksək texnologiyalı investisiyaların, Minsk üçün isə maliyyə və iqtisadi alətlər, bu investisiyaların qoyulması üçün xammal olması baxımından ifadə edilir. Bakı Minsklə neft, maşınqayırma (Gəncə Avtomobil Zavoduna sərmayə qoyma) sektorlarında, logistika sahəsində və Belarusda İsveçrə texnologiyası ilə istehsal olunan elektrik qatarlarının tədarükündə yaxından əməkdaşlıq edir. Bu, böyük bir əməkdaşlıq platformasıdır. Bakı həmişə Minskə dəstək olub və çətin vaxtlarda kömək əlini uzadıb. Məsələn, Rusiyanın bəzi neft şirkətləri Belarusa neft tədarükünü qəfil kəsdikdə, Azərbaycan neft hasilatında lider ölkələrdən biri olaraq dəstək verdi.



***- Sizcə, sadalananlardan başqa, ölkələrimiz arasında potensial əməkdaşlıq hansı digər sahələrdə mümkündür?***

- Yuxarıda sadaladığım sahələrə əlavə olaraq belə hesab edirəm ki, Belarusun Azərbaycana sənaye investisiyalarını artırmaq lazımdır- traktor istehsalı, kommunla texnikalar və avadanlığı istehsalı, şəhər nəqliyyatı, elektrik avtobusları, trolleybuslar, avtobuslar, yük maşınları. Məncə, bütün bunlar böyük perspektivlər açır.

Azərbaycanın azad edilmiş ərazilərində də böyük perspektivlər açılır- infrastrukturun bərpası, kənd təsərrüfatı istehsalı. Belarus, əkindən emala və mağazaya çatdırılmaya qədər məhsul istehsal edən, yalnız ən yeni növ kənd təsərrüfatı müəssisələrinin yaradılmasını əhatə edən, belə desək, aqroşəhərciklərinin həyata keçirilməsində uğurlu təcrübəyə malikdir.

Bu, həm də həyatın sosial sahələrinin tənzimlənməsidir- kənd yerləri üçün yaşayış evləri, məktəblər, mədəniyyət evləri, sanatoriyalar, uşaq bağçaları. Vəzifə müasir sosial infrastruktur yaratmaqdır ki, kənd yerlərində həyat səviyyəsi və keyfiyyəti və sosial standartlar şəhərlərdən daha pis olmasın. İnanıram ki, aqroşəhərciklərin bu təcrübəsi Azərbaycanda da tətbiq oluna bilər.

***- Yəni, Belarus Azərbaycanın azad edilmiş ərazilərinə sərmayə qoyacaq?***

- 2021-ci ilin yazında İlham Əliyevlə Aleksandr Lukaşenkonun görüşündə bu məsələ müzakirə olundu. Belarusun kənd təsərrüfatı müəssisələrinin bərpası və aqroşəhərciklərin, yüksək həyat səviyyəsi və yaşayış standartı ilə ayrılmaz sosial-iqtisadi qrupların yaradılması üçün Azərbaycanın azad edilmiş ərazilərinə öz texnologiyaları ilə sərmayə qoymağa hazır olduğu elan edildi.

Birgə müəssisələr yaradılmalıdır. Belarusda Azərbaycan məhsullarına tələbat var, onlar olduqca canlı şəkildə təqdim olunur. Və Azərbaycanda da QOST standartına uyğun olaraq istehsal olunan ən yüksək keyfiyyət nişanına malik məhsullar kimi Belarus məhsullarına tələbat var.

İnanıram ki, Azərbaycan təbiətini, iqlimini və insanların zəhmətini Belarus texnologiyaları, sərmayələri və aqroşəhərciklərin yaradılması ilə birləşdirsək, yüksək sinergetik effekt əldə edəcəyik ki, bu da Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsalını artırmağa imkan verəcəkdir. həm Belarusda, həm də Azərbaycanın özündə.

Azad edilmiş ərazilərin bərpası üçün Azərbaycanda texnoloji kənd təsərrüfatının modernləşdirilməsinə və yeni səviyyəyə qaldırılmasına dəyər.

***- Belarus cəmiyyəti Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı nə bilir? 44 günlük müharibədə Azərbaycanın qələbəsinə belarusların reaksiyası necə oldu?***

- Bunu deyəcəyəm: bu qarşıdurma Sovet dövrünün son illərində və postsovet dövründə başladığına görə, əlbəttə ki, yaşlı Belarus nəsli mütəxəssislər istisna olmaqla gənclərdən daha çox məlumatlıdır. Ancaq İkinci Qarabağ müharibəsi zamanı bütün Belarus cəmiyyəti sürətlə gedən hadisələri çox yaxından izlədi.

Əsas cəhət beynəlxalq hüququn bütün məqamlarına riayət etmək idi- 7 rayonun dərhal Azərbaycanın nəzarətinə keçməsi, habelə ermənilərin və azərbaycanlıların birgə yaşaması üçün əlverişli şərait yaratmaq üçün ağlabatan addımlar atılmışdı. Bu, əlbəttə ki, çox dəyərlidir. Məncə, bölgədəki aqressiya tədricən minimuma endirilməlidir.

İndi əsas olan sülh şəraitində bir yerdə yaşamaq və bütün bölgə ölkələri arasında əlaqələrin inkişafıdır. Postsovet məkanında daha az dondurulmuş münaqişənin olması və 90-cı illərin əvvəllərində evlərini tərk etmək məcburiyyətində qalan azərbaycanlıların indi geri dönüb sosial həyatlarını və iqtisadiyyatlarını bərpa edə bilmələri çox ürəkaçandır. Belarus hər zaman sərhədlərin toxunulmazlığını və strateji tərəfdaşımız olan Azərbaycan da daxil olmaqla hər bir dövlətin ərazi bütövlüyünün qorunmasını müdafiə edib və bu siyasətini davam etdirir.

***Tərcümə - Elçin Bayramlı***



# Dostla düşməni ayırd edə bilməyən "manqurtlar"!

İki gündür ki, sosial şəbəkədə bir video gözümüzü deşir. Bir kərə silirsən, başqa yerdən çıxıb dürtülür gözümüzə. Bir "zeynəbçi" qadının (Xanım deməyə dilim gəlmir) bu video-görüntüsünün əvvəlindən bir-iki kəlmə qulaq asıb nə mal olduğunu anladığımdan, rədd edirdim. Amma sonra məni maraq bürüdü ki, görüm özünü qatı dindar kimi təqdim edən bu qadın nə moizə danışır. Nəhayət, dişlərimlə dodaqlarımı gəmirə-gəmirə baxdım bu videoya. Əvvəl-əvvəl onu deyim ki, bu "zeynəbçi" qadının dediklərinin hamısı ikinci sinif şagirdinin əzbərlədiyi bir hekayəni, ya nağılı müəllim qarşısında danışmağına oxşayırdı. Yəqin etmək çətin deyildi ki, bu qadın kiminsə, yaxud kimlərinsə fitvası ilə danışır. Elə ən böyük günah odur ki, mahiyyətini bilmədiyin, anlamadığın (yəni qanmadığın) bir məsələ haqqında Kərbala Şəhidi Həzrət Hüseynin sevimli bacısının, Həzrət Məhəmməd (S.Ə.) nəslinin nümayəndəsinin adı ilə xitab edəsən. Bunun günahı öz boynuna. Haqqın dərgahında əhli-beytə özü cavab verəcək. Amma günah bununla bitmir axı! Fars şovinistlərinin ortaya saldığı bu adamabənzər məxluq "zeynəbçi" adı altında fars-molla rejiminin içimizdə yaratmağa çalışdığı təfriqəyə od püskürür ki, bunun günahını haqqın dərgahına buraxmaq olmaz və elə bu dünyadaca yerində oturdulması vacibdir. Mənim ata-babam şiəlik təriqətinin daşıyıcıları olub. Şəcərəmizin bir qolu Şah İsmayıl Xətai nəslinə bağlanır ki, bu da mənim şiəlik təriqətinin daşıyıcılarının nəslindən olduğuma şübhə yeri qoymur. Ancaq indiki sivil zəmanənin az-çox ziyalı təbəqəsinin bir nümayəndəsi olaraq bu gün sünni, şiə, cəfəri, vəhabi, bir sözlə dinimizdə olan bütün təriqət və məzhəbləri rədd edir, bir olan allaha və onun islam dünyasına bəxş etdiyi peyğəmbər əfəndimiz Həzrət Məhəmmədə (S.Ə.) iman gətirirəm. Xüsusilə, guya bizimlə eyni təriqətin - şiəliyin daşıyıcısı olan fars-molla rejiminin əməllərini görəndən sonra bu əqidəmdə haqlı olduğuma qətiyyətlə əmin oldum. İrandan bizə atdığı tolamazdalar, İran adlanan məmləkətdə 40 milyon Azərbaycan türkünün bütün hüquqlarını əllərindən alması yetməzmiş kimi, indi də içimizdən xurafat meyilli insanları manqurtlaşdırıb ölkədə təfriqə salmaq istəyən bir rejimin əxlaqı, mənəviyyatı bir yana, müsəlman olduğuna necə inanaq? Bu "zeynəbçi" manqurt qadını hiddətləndirən guya odur ki, bir müsəlman qadını polis əməkdaşları aparıb danışdırıb! Və bağırır ki, bizim polisimiz müsəlman deyilmiş(?) və müsəlman bir xanımı çağırıb danışdırdığına görə mentalitetimizə xəyanət edib.

Sonra qara çarşavının altından şəhadət barmağını irəli uzadıb hədələyir ki(XOX!), "zeynəbçi"lərlə zarafat eləməyin, sizin hakimiyyətinizi də, paqonlarınızı da alt-üst edərik! (Moşu demiş, ayə qoymayın, üstümüzə irasim, e...irran mollaları gəlir). Bu çarşav geyinmiş ismətsizin bir kişi (fiziki mənada) yiyəsi yoxmu görəsən, çəkib oturtsun yerində? Əvvəla, polisə getmək istəməyən qadın şəhidlərin anım mərasimində niyə siyasi təxribat törətməyə cəhd edirdi? Fars mollalarının uydurduğu "sionistlərin Azərbaycanda mövcudluğu" haqqında nağılı danışmağa yer tapmırdımı ki, gəlib şəhidlərin məzarı başında atılıb-düşürdü? Əslində, həmin polisə cavab verməli olan qadın da, sosial şəbəkədə əsib-coşan "zeynəbçi" də bütün danışıqlarını sionizmlə bağlamağa uğursuz cəhd edirlər ki, bu da xoruzun (Şirin, aslanın yox a...məhz xoruzun) quyruğunu göstərir bizə. Bunlar öz yerində! Amma bu yazını qadının o mənasız videosuna görə deyil, ona görə yazmaq qərarına gəldim ki, bu qadına həmin şəbəkədə yazılan yüzlərlə şərhin tamamı xalqımızın nə qədər yetkinləşdiyinin bariz nümunəsidir. Bəziləri onu, hətta ən nalayiq sözlərlə təhqir etməkdən (Mən bunun əleyhinə olsam da, bunlar da var idi və demək də gərəkdir) belə çəkinmirdilər. Həm də həmin qadını müdafiə etmək istəyən yeganə bir saxta profilli "kişi"dən fərqli olaraq, açıq imza ilə. Və anladım ki, biz nə qədər dad döysək də ki, xurafat cəmiyyətimizdə geniş yayılmaqdadır, sən demə, cəmiyyət özü xurafatçılara məzar qazmağa hazırdır. Elə yazımı da bu nikbin notla bitirmək istərdim. Artıq heç bir şübhə yoxdur ki, İranın indiki fars-molla rejiminin otuz ildi içimizdə apardığı xurafatçılıq ideologiyası fiaskoya uğrayıb. Qalır tək-tük bu ideologiyanın qurbanları olmuş zavallıları da ağıla gətirib təsirdən çıxarmaq. Ən azı müsəlman məscidlərini, məzarlıqlarını xaraba qoyan, təhqir edən, on minlərlə müsəlmanı uşaq, qadın, qoca demədən qətlə yetirən erməniyə arxa duran İran adlanan bir islam dövlətindənsə, şeytan qanından dünyaya səpələnmiş bu məxluqlardan şəhidlərimizin, dini abidələrimizin, məzarlıqlarımızın intiqamını almaqda dəstəyini əsirgəməyən, dinindən, dilindən, təriqət mənsubluğundan asılı olmayaraq istənilən dövlət bizə daha əzizdir və dostumuzdur. Yəni, konkreti, bizə dost, qardaş deyib arxadan zərbə vurmağa hazır olduğunu əməli ilə göstərən İran fars-molla rejimindənsə, dostluqdan dəm vurmayıb ən çətin anda bizə dəstəyini əsirgəməyən İsrailə dost demək daha məntiqli deyilmi?

***Təhmasib Novruzov***

# Süni kofe yaradıldı




İqlim dəyişikliyi həyatımızın bir çox sahəsinə təsir edir. Qlobal istiləşmə zamanla əksər kənd təsərrüfatı məhsullarının tükənməsinə səbəb ola bilər. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, bu məhsullardan biri də qəhvədir. Lakin finlandiyalı elm adamları laboratoriya şəraitində qəhvə istehsal etməyi bacarıblar.

Elm adamlarını bu addıma təşviq edən dəyişən hava şəraiti nəticəsində istehsalın günü-gündən çətinləşməsi və bunun da qəhvənin qiymətinin bahalaşmasına gətirib çıxarmasıdır. Finlandiyanın Espoo şəhərində yerləşən elmi-texniki tədqiqatlar mərkəzi tərəfindən süni qəhvə istehsalına başlanılıb. Alimlər laboratoriyada qəhvə istehsalının bir çox müsbət tərəfinin olduğunu vurğulayıblar. Təsdiq edilərsə, 2025-ci ildən etibarən sözügedən qəhvənin satışına başlanılacaq.

***Mirqəmər Mənsimova***

# Uşaqların həddindən artıq smartfondan istifadə etməsi nə qədər doğrudur?

Araşdırmalara görə, smartfonların gündəlik həyatda və insanlararası münasibətlərdə funksionallığa təsir edən təkrarlanan davranış pozğunluqlarına səbəb olduğu müşahidə olunur. Smartfonların istifadəsi bir çox rahatlıq təmin edir, həm də psixoloji, fizioloji və insanlararası münasibətlərə mənfi təsir edir. Araşdırmalara görə, fərdlərin 5 yaşında ilk cib telefonuna və 10 yaşında ilk ağıllı telefonuna sahib olmaları, cib telefonlarından çox erkən yaşlarından istifadə etməyə başlamalarının telefon asılılığına təsir etdiyini göstərir. Smartfon istifadə pozğunluğu əsasən telefondan uzaq dura bilməmək, telefonu tez -tez yoxlamaq istəyi, smartfonda keçirdiyi vaxtın fərqinə varmamaq səbəbindən yuxu keyfiyyətinin pisləşməsi və istifadə səviyyəsinin artmasından qaynaqlanır. Bəs, bunların baş verməməsi üçün uşaqlar neçə yaşında telefon alınmalıdır? Uşaqların smartfonlardan istifadəsi necə tənzimlənməlidir?



**Bu barədə psixoloq Aytən Ələkbərova SİA-ya öz fikirlərini bölüşüb. O mövzuyla bağlı deyib:** "Əslində, övladlarımızın telefona meyil etməsi və ondan istifadə etməsi təbiidir ki, bir sıra hafizədə psixi əməliyyatlarla bağlıdır. Yəni onlarla fəal sürətdə yiyələnmək, insan özünə lazım olan informasiyanı əldə etmək üçün telefonun daha çox bu məqamından istifadə edir. Amma gəlin görək bizim uşaqlar necə? Təbii ki, hafizə hadisəsi eyni dərəcədə emosional aləmə, qavrayış sahəsinə aid ola bilir. Bu, eləcə də, hərəki prosseslərdə intellektual təcrübənin möhkəmlənməsini əhatə edir. Əgər biz bununla bağlı bir övladımızın hafizəsinin fəaliyyətinə nüfuz edən tərəfləri görürüksə, təbiidir ki, biz onu elə tənzimləməliyik ki, övladımız bunu şüurlu şəkildə qəbul edə bilsin. Yəni həmin prosseslərin qarşılıqlı əlaqəsinə diqqət edirik ki, bizə lazım olacaq tərəfdən müəyyən materialları yadında saxlaya bilsin. Hansı ki, indi hazırda onlayn sistemdir. Onlayn sistemin özünün içərisində baxırıq ki, məcburən biz materiallardan istifadə etməliyik. Deməli ki, biz övladımıza ancaq və ancaq bu sənin intellektual səviyyəni artırmaq üçündür deyə bəzi fikirlərimizi tez-tez xatırlatsaq daha yaxşı olar. Bəzən də biz baxırıq ki, övladımızın yeniyetmə yaşına çatan bir dövrdə 7-13 yaş aralığı bu, hansı ki ikinci şəxsiyyət dövründən üçüncü şəxsiyyət dövrünə keçiddir. Bəli bu zaman müəyyən xaotik dövr olduğu üçün müəyyən gözləmədiyimiz hadisələrə ortaya çıxa bilər. Mütləq şəkildə valideyinin diqqəti və nəzarəti olmalıdır. Onunla bərabər hər hansı filmi izləməsi, gözəl bir musiqini dinləməsi, gözəl bir musiqinin müşaiyyəti ilə bərabər ev işlərini görə biləcəyi məqamlar və yaxud deyək ki, yolda getdiyiniz zaman avtomobildən istifadə etmək üçün musiqiyə qulaq asmaq kimi addımlar atmaq olar. Amma biz bəzən baxırıq ki, bizim övladlarımızın həddindən artıq o oyunlara meyil etməsi onların psixi durumunda zombiləşməyə gətirib çıxarır. Odur ki, biz övladlarımızı telefondan yenə deyirəm elə bir məqamdır ki, tamamilə uzaqlaşdıra bilmərik. Nə də ki, biz bu yaşdan bu telefonu verməməlisiz deyəndə bizi eyni zamanda anlamayacaq insanlar olacaq. Deyəcəklər axı sinifdə filankəsdə var, bu mənim uşağımı depressiyaya salır. Bu depressiyaya salırsa, mən məcburam hə yaxşı sinifdə də hamının varsa, biz də öz övladımıza bunu məsləhət görək. Amma çox gözəl olardı ki, telefondan istifadəni biz övladımıza üçüncü şəxsiyyətə keçid dövründə hansı ki, abituriyent hazırlığıdı filan həmin dövrdə ağıllı şəkildə təqdim etməyi bacaraq".



**Sosioloq Lalə Mehralı da öz fikirlərini bizimlə bölüşdü. Lalə Mehralı fikirlərini belə dilə gətirib:** "Bu sualla iki il əvvəl müraciət etsəydiz, mən deyərdim ki, ümumiyyətlə, yetkinlik yaşına çatana qədər uşaqlara müəyyən istisnalar xaricində telefon verilməyinin əleyhinəyəm. İstisnalar da bu ola bilər ki, valideyn işdə, səfərdə olanda uşaqla əlaqə saxlamaq üçün müəyyən çərçivədə telefon verə bilər. Amma pandemiyanın bizə diktə etdiyi şərtlərdən biri də mütləq şəkildə hər bir uşaqda smartfon olması məsələsidir. Təhsilə görə, valideyinlər istər öz telefonlarını, istərsə də uşağa özəl telefon vermək məcburiyyətində qalır. Valideynin smartfonu var, amma bütün günü işdə olur. Övladı dərslərə qoşulmalıdır. Bu zaman da telefon ehtiyacı yaranır. Valideynlər bu kimi hallar qarşısında uşaqlara telefon almaq məcburiyyətində qaldı. Əksəriyyətimiz bundan məmnun olmasaq da, məcburiyyət qarşısında qalaraq aldıq. Doğrudur, heç vaxt yetkinlik yaşına çatmamış uşaqların smartfondan istifadə etməsini düzgün hesab etməsəm də, pandemiya şəraitində onun əksini eləməyə məcbur qaldıq. Hər kəs kimi mən də oğlumun şəxsi telefonu olsun deyə almadım. Mənim telefonumu istifadə edərək dərslərə qoşuldu. Tutalım, mən bu şəraiti övladım üçün iş saatlarım münasib oldu deyə yaratdım. Səhər tezdən gedib, gecə yarı dönən valideyinlər bu imkandan istifadə edə bilmədiyi üçün övladına smartfon almaq məcburiyyətində qaldı. Təbii ki, uşaqların azad internet istifadəsini təmin etdi. Uşaqlar valideyin nəzarəti olmadan telefondan istifadə etdi. İstədiyi platformalara girib-çıxa bildi. Təbii ki, bu da onun davranışında təlim-tərbiyəsində özünü göstərir. Valideynlərdən asılı olmayan səbəblərdən olduğu üçün smartfonları uşaqların həyatından çıxarmaq məsələsi bir qədər real görünmür. Çünki biz bu ildə gözləyirik ki, uşaqlarımız onlayn şəkildə təhsil alacaq. Bu səbəbdən də smartfonları uşaqların həyatlarından tamamilə çıxara bilmirik. Amma maksimum nəzarəti təmin edə bilərik. Yenə təkrar edirəm ki, bir çox valideyin gün ərzində işdə olduğuna görə, nəzarəti həyata keçirə bilmir. Bəziləri texnologiyadan başı çıxmadığı üçün izləmə funksiyalarını yerinə yetirə bilmir. Mən hesab edirəm ki, uşaqları valideynlərin özü ilə aparması ən yaxşı variantdı. Uşaqlara başa salmaq lazımdır ki, hara giriş-çıxış onun yaşına uyğundu. Hansı platformalar onun yaşı üçün uyğun deyil. Bu məsələni yalnız danışıq yolu ilə həll etmək olar. Uşaqlar elə psixologiyaya malik olurlar ki, onlara qadağan olan nə varsa, onlara maraq göstərirlər. Hansı sayta, hansı platformaya girməsini qadağan etsək, məhdudlaşdırsaq ona yönəlirlər. Bu baxımdan da yalnız danışıq, başa salma yolu ilə nəyəsə nail olmaq olar. Bizdən asılı olmayan səbəblərdən uşaqlar smartfonlara asılı olur, aludəçi olur. Necə deyərlər elnən gələn toy bayramdır. Əlimizdən heç bir iş gəlmir. Bütün bunlar pandemiyanın bizə gətirdiyi şərtlərdir".



***Turqay Musayev***

# Oksfordlu alimlər xərçəng əleyhinə dərman hazırlayıblar

Oksford Universitetinin mütəxəssisləri Himalay göbələyi əsasında xərçəng əleyhinə təsir göstərən yeni güclü bir kimyaterapiya dərmanı hazırlayıblar. Elm adamları xərçəng əleyhinə agentlər yaratmaq üçün Himalay göbələyi "Cordyceps sinensis" bitkisindən əldə edilən bir birləşmə istifadə ediblər. Bioloqlar neoplazmanın hüceyrələrə nüfuz etmə qabiliyyətini artıraraq bitkilərin xüsusiyyətlərini yaxşılaşdırmağa nail olublar. Bu, onkoloji xəstəliklərlə mübarizədə dərmanın effektivliyinin təsirini 40 dəfəyə qədər artırmağa imkan verir.

Dərman hal-hazırda möhkəm şişləri olan, xəstəliyin I fazasını keçirən xəstələrdə klinik sınaqlarda istifadə olunur. Ekspertlərin bu araşdırması "Clinical Cancer Research" jurnalında dərc olunub.

***Nubar Süleymanova***

# Moskva əhli daha yaxşı yaşayacaq

Moskva hökuməti, 1 yanvar 2022 -ci ildən etibarən paytaxt sakinlərinin yaşayış minimumunu artırmağa qərar verib. Moskva hökumətinin fərmanına əsasən, bu adambaşına 18 714 rubl təşkil edəcək. "Moskva hökuməti, 2022 -ci ildə adambaşına düşən yaşayış minimumunun dəyərini - 18.714 rubl, əmək qabiliyyətli əhali üçün - 21.371 rubl, təqaüdçülər üçün - 14.009 rubl, uşaqlar üçün - 16.174 rubl təyin etmək qərarına gəlir" SİA RİA Novosti -yə istinadən xəbər verir ki, bunu paytaxt meri Sergey Sobyanin deyib.

Xatırladaq ki, 2021 -ci ildə Moskvada adambaşına yaşayış minimumunun səviyyəsi 18.029 rubl, əmək qabiliyyətli əhali üçün 20.589 rubl, pensiyaçılar üçün - 13.496 rubl və uşaqlar üçün - 15.582 rubl idi. Yeni fərman növbəti 2022 -ci ilin əvvəlindən qüvvəyə minəcək.

***Ağasəf***

## ELAN

"TİKMAT" təchizat şirkətinin M. Hadi və X. Məmmədov küçələrinin kəsişməsi 2944 "A" məhəlləda inşa etdiyi 8 saylı binanın "A" girişinin 7-ci mərtəbəsində yerləşən (sahəsi S=122, 4 kv.m ) olan Babayev Ceyhun Qafar oğluna məxsus 31saylı mənzilə aid alqı-satqı müqaviləsi və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**